

## Erməni vəhşiləri qədim monastrları təhqir ediblər

14

# Gələcəyə hesablanmış uğurlu gənclər siyasəti

Səs
№ 017 (6458) 29 yanvar 2022-ci il. Qiymətı 60 qəpik

3



*Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir", - deyən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərində ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır.*

# Qərb və Rusiya: təhlükəsizlik zəmanəti, yoxsa müharibəyə zəmanət?

15



***ABŞ** Rusiyanın Ukraynaya hərbi müdaxiləsi halında 18 ssenari hazırlayıb. Lakin o da maraqlıdır ki, ABŞ prezidenti Bayden Ukrayna prezidenti Zelenski ilə apardığı telefon görüşməsi zamanı həmkarına fevral ayında ehtiyatlı olmağı tövsiyə edib. Yəni Rusiyanın hücumunun məhz fevralda başlayacağı ilə bağlı məlumatlı olduğunu bildirib.*

4



## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib

*Yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasın müzakirəsinə "Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi" məsələsi çıxarılıb.*

## "Paşinyan Sarkisyanı müəyyən vasitələrlə istefaya məcbur edib"



15

"Ermənistanda son dövrlərdə xüsusən də 2-ci Qarabağ müharibəsindən sonra baş verənlər gözlənilən idi. Bu məğlubiyyətlə əlaqələndirilsə də Ermənistanın siyasətinə nəzər salsaq görərik ki, elə müharibədən əvvəl də onun siyasətində Ermənistana xarakterik olan müəyyən xüsusiyyətlər var idi"...

## "Rusiyanın təhrik edilməsinin bir neçə səbəbi var"

10



*Artıq Ukrayna üzərindən Amerika və onun NATO müttəfiqləri ilə Rusiya arasında münasibətlər kifayət qədər gərgin bir mərhələyə daxil olub və Qərb analitiklərinin, Qərb mətbuatının yazdığına görə hər an Rusiya tərəfindən Ukrayna ərazilərinə hərbi müdaxilələr gözlənilə bilər, proqnozlar məhz...*

Bax 16

## Xarici diplomlar hansı hallarda tanınmır?

"Xarici diplomlar əsasən tələbənin təhsil aldığı dil üzrə biliklərinin olmaması, təhsil aldığı ixtisas barədə məlumatsızlığı, iddia etdiyi dövr ərzində xarici pasportunda müvafiq olaraq ölkədən çıxış və giriş tarixlərinin öz əksini tapmaması (əyani və qiyabi təhsil formalarının yoxlanışı zamanı baxılır.

Bax 14

## Fərariliyə don geyindirməyin sadə yolu

Ermənistan müdafiə nazirinin müavini olmuş Artak Zakaryanın bununla nə demək istədiyini hələ də anlaya bilmirlər. Yaxşı, gəlin Sarkis Saturyan adlı ermənının "döyüşkən erməni ordusu" barədə dediklərini yada salaq.

# Ronaldo 28 yaşını sevgilisi ilə qeyd etdi



16



## Qısqanclıq nədir, - SEVGİ, YOXSA GÜVƏNSİZLİK?

16

*"Ümumiyyətlə, insan elə uşaq ikən qısqanclığın nə hiss olduğunu öz böyüdüyü, boya-başa çatdığı ailəsində görür. Ailəsinin övladlar arasında olan münasibəti, valideynlərin bir-birinə və övlada olan münasibətində müəyyən*

# Ümumdünya Gömrük Təşkilatı Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyini davam etdirəcək

## *Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini videoformatda qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.***



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladı. Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.

Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi. Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Sankt-Peterburqda Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılıb





***Sankt-Peterburqdakı Mərmər sarayda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, sərginin ekspozisiyası bir neçə tarixi dövrü birləşdirən xalça, zərgərlik, bədii metal, miniatür və teatr-dekorasiya sənətinin, həmçinin klassik musiqi və rəqsin, müasir incəsənətin və deklamasiya layihəsinin sintezindən ibarətdir.***

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov sərginin açılışında çıxış edərək bildirib ki, mədəni əlaqələr xalqların yaxınlaşmasında ən qısa yoldur. "Bizim ölkələri çoxəsrlik dostluq, qardaşlıq, mehriban qonşuluq ənənələri birləşdirir. Biz bu qarşılıqlı münasibətləri ildən-ilə möhkəmləndirməyə çalışırıq. Dövlətlərimizin başçıları nümunəvi qarşılıqlı münasibətləri ilə humanitar sahə də daxil olmaqla, bütün istiqamətlərdə əməkdaşlığın gücləndirilməsinə töhfə verirlər", - deyə Anar Ələkbərov vurğulayıb.

Prezidentin köməkçisi xatırladıb ki, Heydər Əliyev Fondunun ilk nümayəndəliklərindən biri məhz Rusiyada yaradılmışdı. "Fond təhsil, səhiyyə, ekologiya sahələri də daxil olmaqla bir çox layihələr həyata keçirib. Lakin bu layihələrin böyük hissəsini mədəniyyət sahəsindəki layihələr təşkil edir", - deyə Anar Ələkbərov qeyd edib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında möhtəşəm sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, habelə Rus Muzeyinin və Azərbaycan Milli Xalça Muzeyinin rəhbərliyinə təşəkkürünü bildirib. Rus Muzeyinin baş direktorunun müavini vəzifəsini icra edən Qriqori Qoldovski deyib ki, sərgidə tətbiqi incəsənət əsərləri, videoinstalyasiyalar, nadir miniatürlər, toy bəzəkləri və başqa eksponatlar təqdim edilib. Bu sərgi Nizami Gəncəvi dövründən və onun yaradıcılığının xüsusiyyətlərindən xəbər verən şərq mədəniyyətinin orijinal rəngarəngliyini göstərir.

Nizami poeziyası əsrlər boyu bir çox sənətkarların yaradıcılığına təsir edib. Klassik əsərə çevrilən diqqətəlayiq əsərlərdən biri də görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletidir. Balet məşhur "Xəmsə" poemalarından biri əsasında yazılıb. Bu əsər ilk dəfə 1956-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdirilib.

Bu iki - ədəbi və musiqi-xoreoqrafiya mənbə əsasında sərginin ekspozisiyasında dekorativ-tətbiqi incəsənətin qiymətli eksponatlarının nümayişi üçün xüsusi mühit yaradılıb. Azərbaycanlı məşhur konseptualist-rəssam Rəşad Ələkbərovun "kölgələrdən rəsmlər" metodu ilə XVI əsrə aid "Kitab oxuyan gənc" adlı Təbriz miniatürü əsasında yaratdığı "miniatür" instalyasiyası bu mühitə giriş kimi xidmət edir.

Heydər Əliyev Fondu və İCOM-un Azərbaycan Milli Komitəsi tərəfindən təşkil edilmiş "Nizami: dildən-dilə" beynəlxalq onlayn-deklamasiya layihəsinin videoçarxı sərginin interaktiv davamıdır. Bu hissədə Azərbaycan, Rusiya, Özbəkistan, Qazaxıstan və Qırğızıstanı təmsil edən 150-dən çox məşhur incəsənət və mədəniyyət xadimi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından fraqmentləri estafet prinsipi ilə deklamasiya edirlər.

Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil edilmiş "Yeddi gözəl" sərgisinin ekspozisiyasına Heydər Əliyev Fondunun, Azərbaycan Milli Xalça Muzeyinin və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları daxildir. Sərgi mayın 9-na qədər davam edəcək. Sankt-Peterburqda, həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsinin təməl daşının qoyulması mərasimi keçirilib.



# Gələcəyə hesablanmış uğurlu gənclər siyasəti

## İlham Əliyev: "Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər"

*Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir", - deyən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərində ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır.*



Vurğulayaq ki, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər Heydər Əliyev böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkirdi. Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən Heydər Əliyev müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzalayıb. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Yaradılmış yeni nazirlik gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılmasını təmin etdi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da olduqca əhəmiyyətli idi.

### "HƏR BIR AZƏRBAYCAN GƏNCİ HƏR ŞEYDƏN ÇOX, HƏR ŞEYDƏN ARTIQ MÜSTƏQİL AZƏRBAYCANIN BU GÜNÜ, GƏLƏCƏYİ HAQQINDA DÜŞÜNMƏLİDİR"

Gənclər hərəkatının təşkilatlanması istiqamətində dövlətin dəstəyi bu istiqamətdə öz bəhrəsini verdi. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu gününü, gələcəyi haqqında düşünməlidir". Təşkil olunan forumlardakı Ulu Öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Ulu Öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərman müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratmışdır. Həmin Fərmanla, o cümlədən Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş, Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılmışdır.

2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Ümummilli Liderin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə dəyişməsinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi. Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir", - deyən Ulu Öndər Heydər Əliyevin bu fikri dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla daim aktualdır və gəncləri Azərbaycanın sabahı naminə səfərbər edir.

### GƏNCLƏRİN RİFAHINA XİDMƏT EDƏN MÜHÜM DÖVLƏT PROQRAMLARI REALLAŞIB

Son 18 ildə görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Bu gün Azərbaycan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişaf dövrünü yaşayır. Gənclərimiz Cənab Prezidentin tövsiyəsi əsasında öz bilik və bacarıqlarını genişləndirərək, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb ölkəmizin inkişafına töhfə verməkdədirlər. Cənab Prezidentin rəhbərliyi ilə gənclərin rifahına xidmət edən mühüm dövlət proqramları reallaşıb. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" dövlət gənclər siyasətinin həyata keçirilməsi yolunda mühüm fəaliyyət sənədi olmuşdur. Həmin Dövlət Proqramının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir. Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər.

### "BİZİM ŞƏHİDLƏRİMİZİN BÖYÜK ƏKSƏRİYYƏTİ GƏNCLƏRİMİZ OLUBDUR"

Gənclər siyasəti sahəsində atılan addımlar və qəbul olunan qərarlar Prezident İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan birini də cəmiyyətin ən dinamik təbəqəsi qismində çıxış edən gənclərin potensialından səmərəli istifadə təşkil edir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilmişdir və gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır.

Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla bağlı demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər". Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Müstəqil Azərbaycanın çiçəklənməsi, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində gənclərimiz səylə çalışaraq, ölkə başçısı İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizi uğurlu gələcəyə aparan bu siyasətə dəstək verirlər.

**Zümrüd BAYRAMOVA**

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib




*Yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasın müzakirəsinə "Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi" məsələsi çıxarılıb.*

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra partiyanın həyatında yeni mərhələ başlayıb, yeni qəbul olunmuş Nizamnaməyə əsasən partiyanın yeni strukturu müəyyən edilib. Vurğulanıb ki, Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz.

Mərkəzi Aparatın rəhbəri qeyd edib ki, artıq ötən ilin sentyabr ayından partiyanın Bakı şəhəri üzrə təşkilatlatlarının sədrləri öz vəzifələrinin icrasına başlayıblar. Ötən dövr ərzində respublikanın digər şəhər və rayonları üzrə yerli təşkilatların sədrliyinə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı geniş təhlillər, müzakirələr aparılıb və yekun olaraq təklif olunan namizədlərin siyahısı hazırlanaraq əvvəlcədən İdarə Heyətinin üzvlərinə təqdim olunub.

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvləri Cavid Osmanov, Asif Əsgərli, Ramin Məmmədov, Şahin İsmayılov, Hikmət Babaoğlu, Elmar Qasımov, Anar İsgəndərov və Eldar İbrahimov yerli təşkilatların sədrliyinə layiqli namizədlərin irəli sürüldüyünü qeyd ediblər.

Müzakirələrdən sonra səsvermə keçirilib və aşağıdakı şəxslər yerli təşkilat sədrləri təyin olunub:

1. Hüseynov Ramiz Ağəli oğlu - YAP Sumqayıt şəhər təşkilatı
2. Əliyev Abbas İslam oğlu - YAP Abşeron rayon təşkilatı
3. Quliyev Ayaz Sərvər oğlu - YAP Xızı rayon təşkilatı
4. Abdullayev Füzuli Tahir oğlu - YAP Ağsu rayon təşkilatı
5. Muradov Zaur Fazil oğlu - YAP İsmayıllı rayon təşkilatı
6. Qasımov Qasım Nurməhəmməd oğlu - YAP Qobustan rayon təşkilatı
7. Qasımlı Tural Şahnəzər oğlu - YAP Şamaxı rayon təşkilatı
8. Orucov Ramil Mayıl oğlu - YAP Gəncə şəhər təşkilatı
9. Heydərov Rövlan Nəsib oğlu - YAP Naftalan şəhər təşkilatı
10. Yolçuyev Meydanəli Binəli oğlu - YAP Daşkəsən rayon təşkilatı
11. İsmayılov Elçin Şəmil oğlu - YAP Goranboy rayon təşkilatı
12. İsayev Vüqar Sabir oğlu - YAP Göygöl rayon təşkilatı
13. Bayramov Gündüz Çankay oğlu - YAP Samux rayon təşkilatı
14. Əhmədov Rövşən Nağı oğlu - YAP Ağcabədi rayon təşkilatı
15. Quliyev Mansur Söhbət oğlu - YAP Ağdam rayon təşkilatı
16. Şadlinskaya Faqət Nəcəb qızı - YAP Bərdə rayon təşkilatı
17. Həşimova Almaz Ələkbər qızı - YAP Füzuli rayon təşkilatı
18. Əliyev Vahid Surxay oğlu - YAP Xocalı rayon təşkilatı
19. Hüseynov Vüsal Cavay oğlu - YAP Xocavənd rayon təşkilatı
20. Əliyev Təvəkkül Böyükkişi oğlu - YAP Şuşa rayon təşkilatı
21. Əsədov Eldar Garay oğlu - YAP Tərtər rayon təşkilatı
22. Hacıyev Etibar Cəfər oğlu - YAP Ağstafa rayon təşkilatı
23. Nağıyev Rüstəm Vaqif oğlu - YAP Gədəbəy rayon təşkilatı
24. Nəbiyev Anar Telman oğlu - YAP Qazax rayon təşkilatı



25. Vəliyev Fəxrəddin Vəli oğlu - YAP Şəmkir rayon təşkilatı
26. Pənahov Nihad Məmmədtağı oğlu - YAP Tovuz rayon təşkilatı
27. Balaqadaşov Məhəmməd Müslüm oğlu - YAP Xaçmaz rayon təşkilatı
28. Nəbizadə Fidan Nizami qızı - YAP Quba rayon təşkilatı
29. İbramxəlilov David Nurəddin oğlu - YAP Qusar rayon təşkilatı
30. Baxşıyev Samir Vadim oğlu - YAP Siyəzən rayon təşkilatı
31. Balabəyov Mehdi Eyyub oğlu - YAP Şabran rayon təşkilatı



32. Cəfərov Həbib Zərxan oğlu - YAP Astara rayon təşkilatı
33. Mirxaslı Mirsüleyman Mirismayıl oğlu - YAP Cəlilabad rayon təşkilatı
34. Mirzəyev Malik Soltanağa oğlu - YAP Lerik rayon təşkilatı
35. Əmənullayev İqbal Qabil oğlu - YAP Lənkəran şəhər təşkilatı
36. Əliyev Seyfəddin Abusət oğlu - YAP Masallı rayon təşkilatı
37. Alışov Anar Xalıq oğlu - YAP Yardımlı rayon təşkilatı
38. Yusubov Cavanşir Nəriman oğlu - YAP Mingəçevir şəhər təşkilatı
39. Rəcəbov Əlişah Rəcəb oğlu - YAP Ağdaş rayon təşkilatı
40. Şükürov Sahib Yunis oğlu - YAP Göyçay rayon təşkilatı
41. Cəbrayılov Ayaz Akif oğlu - YAP Kürdəmir rayon təşkilatı
42. Abdullayeva Şəhla Əhməd qızı - YAP Ucar rayon təşkilatı
43. Əliyev Rafiq Vaqif oğlu - YAP Yevlax rayon təşkilatı
44. Əliyev İlkin Böyükağa oğlu - YAP Zərdab rayon təşkilatı
45. Səfərov Müşfiq Arzuman oğlu - YAP Beyləqan rayon təşkilatı
46. Ağayev Səfa Malik oğlu - İmişli rayon təşkilatı
47. Şıxəliyev Lütvəli İbrahim oğlu - YAP Saatlı rayon təşkilatı
48. Rüstəmov Varis Rüstəm oğlu - YAP Sabirabad rayon təşkilatı
49. Balayev Azad Rizvan oğlu - YAP Balakən rayon təşkilatı
50. Allahverdiyev Natiq Şükür oğlu - YAP Qax rayon təşkilatı
51. Ağasəfov Abil Adil oğlu - YAP Qəbələ rayon təşkilatı
52. Məhərrəmov Saleh Calal oğlu - YAP Oğuz rayon təşkilatı
53. Mikayılov Daşqın Gündüz oğlu - YAP Şəki şəhər təşkilatı
54. Qurbanov Habil Qurban oğlu - YAP Zaqatala rayon təşkilatı
55. Fərzəliyev Arif Aydın oğlu - YAP Cəbrayıl rayon təşkilatı
56. Misirov Həbib Məhərrəm oğlu - YAP Kəlbəcər rayon təşkilatı
57. Rüstəmov Təhmasib İbrahimxəlil oğlu - YAP Qubadlı rayon təşkilatı



58. İlyasov İlqar Süleyman oğlu - YAP Laçın rayon təşkilatı
59. Quluzadə Natiq Qurban oğlu - YAP Zəngilan rayon təşkilatı
60. Qəhrəmanov Zahir Məmmədyar oğlu - YAP Şirvan şəhər təşkilatı
61. Qurbanlı Kamil Məhəmməd oğlu - YAP Biləsuvar rayon təşkilatı
62. Əmirəslanov Elnur Mehman oğlu - YAP Hacıqabul rayon təşkilatı
63. Fərzəliyev Ülvi Cəlil oğlu - YAP Neftçala rayon təşkilatı
64. Əhmədov Elmar Ağakişi oğlu - YAP Salyan rayon təşkilatı



YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yeni təyin olunan yerli təşkilatların sədrlərinə fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda həmçinin, YAP-ın Şəki şəhər təşkilatın sabiq sədri Həsən Həsənov, Gəncə şəhər təşkilatının sabiq sədri, YAP Təftiş Komissiyasının üzvü Naqif Həmzəyev, Abşeron rayon təşkilatının sabiq sədri Bilman Vəliyev çıxış edərək ötən dövr ərzindəki fəaliyyətlərinə verilən müsbət qiymətə görə təşəkkür edib və yeni sədrlərə işlərində nailiyyətlər arzulayıblar.

Eyni zamanda, YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova və yeni təyin olunmuş Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov göstərilən yüksək etimada görə təşəkkürlərini ifadə edərək bu etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

İclasın sonunda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıda dayanan vəzifələrdən danışıb və qeyd edib ki, bu il partiyamızın təsis olunmasının 30 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlanır. Yubiley ili çərçivəsində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulur.

İclasda həmçinin cari məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# YAP-ın yeni proqramında iqtisadi hədəflər

## *4-cü sənaye inqilabının perspektivləri*

***Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiya daşıyıb. 30 il öncə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır. Müxalifət partiyası kimi o zaman da YAP-ın Azərbaycanın xilas olması ilə bağlı cəsarətli təşəbbüslərlə çıxış etməsi və dövlətçilik ideyalarını rəhbər tutması tarixi bir zərurət idi.***

Ona görə də Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış bir təşkilatdır. Partiyanın yaranması, inkişafı və güclənməsi Ulu Öndər Heydər Əliyevin ideyaları, onun nüfuzu, uzaqgörənliyi və dövlətçiliklə bağlı zəngin təcrübəsi və məsləhətləri əsasında baş vermişdir. Ötən dövr ərzində Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar partiyasına və eyni zamanda Cənubi Qafqazın ən böyük siyasi gücünə çevrilmişdir. Son 18 ildə Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyimiz uğurlar Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti və eyni zamanda uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycan keçən dövr ərzində kifayət qədər tarixi uğurlar əldə etmişdir. Bu uğurlar həm iqtisadiyyatda, həm sosial sahədə, həm də Azərbaycanın beynəlxalq nüfuzunun artması sayəsində əldə edilmişdir. Eyni zamanda bu uğurlar içərisində ölkədə əldə edilmiş milli birliyin nəticəsində uzun illər ərzində işğal altında olan torpaqlarımızın azad olunmasını xüsusilə vurğulamaq lazımdır.

Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının rəhbəri kimi cənab İlham Əliyevin fəaliyyəti zamanı, yəni son 18 ildə Azərbaycanda 4 mühüm nəticəyə nail olunmuşdur. Bunlardan birincisi ondan ibarətdir ki, Azərbaycanda dayanıqlı əsaslara söykənən güclü birlik yaranmışdır. Bu birlik həm xalq-iqtidar birliyidir, bu birlik eyni zamanda müxtəlif millətlərin və dinlərin birliyidir. Azərbaycanda bu gün hər bir xalqın nümayəndəsi kifayət qədər rahat yaşayır, öz dilində danışa bilir, öz dininə sitayiş edir və yaxud hər hansı bir siyasi partiyanın nümayəndəsi öz fikirlərini azad şəkildə ifadə edir. Azərbaycanda belə bir birliyin əldə olunması çox böyük uğurdur. Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulması da sözsüz ki, bu birliyin, həmrəyliyin nümunəsidir. Bu həm də Yeni Azərbaycan Partiyasının nüfuzunun artmasının, xalqın maraqlarına xidmət etməsinin, iqtidara qarşı olan müsbət ictimai fikrin və ən ümdəsi, partiyanın Sədri cənab İlham Əliyevə və Sədrin birinci müavini Mehriban xanım Əliyevaya olan ümumxalq məhəbbətinin daha da artmasının göstəricisidir.

İkinci mühüm nəticə iqtisadiyyatda əldə edilmiş uğurlarla bağlıdır. Son 18 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artmışdır. Bu gün Cənubi Qafqazın iqtisadiyyatının böyük hissəsi ölkəmizə aiddir. Bu gün regionda Azərbaycanın iştirakı olmadan reallaşan hər hansı bir layihə yoxdur. Azərbaycan iqtisadi baxımdan regionda ən müstəqil ölkədir. 2020-ci ildə pandemiya ilə mübarizədə, Vətən müharibəsi zamanı iqtisadi resurslarımız və iqtisadi müstəqilliyimiz həlledici amil rolunu oynadı. Azərbaycanın iqtisadi, maliyyə resursları ölkəmizin müstəqilliyini təmin edəcək qədər güclüdür, yetərlidir və bundan sonra da Azərbaycanın müstəqilliyinin, qüdrətinin güclənməsini təmin edəcəkdir.

Üçüncü nəticə Azərbaycanın beynəlxalq nüfuzu ilə bağlı əldə edilmişdir. Ölkəmiz müstəqillik əldə etdiyi illərdə hər birimizin arzusu Azərbaycanın daha çox tanınması, xaricdə Azərbaycanın milli, mənəvi dəyərlərinin bilinməsi, məşhur şeirdə deyildiyi kimi, "imzalarımızın imzalar arasında olması" idi. Hər zaman Azərbaycan deyəndə onun tanınması, adət ənənələrimizin bilinməsini biz çox arzulayırdıq. Biz artıq bu arzulara çatmışıq. Bu gün dünyada Azərbaycan deyəndə kifayət qədər nüfuzlu, öz milli dəyərləri olan, qurub-yaradan, güclü və müstəqil bir ölkə kimi qəbul olunur.

Azərbaycan hazırda Qoşulmama Hərəkatının sədridir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına rəhbərlik edən ölkələrdən biri olub, bütövlükdə Avropa Şurasında, ATƏT-də, Avropa İttifaqında müstəqil və yaradıcı mövqeyi olan çox az saylı ölkələrdən biridir.

Dördüncü nəticə isə uzun illərdir ki, Azərbaycan xalqının vahid bir amal uğrunda apardığı Vətən müharibəsindən tam qalib çıxmasıdır. İşğal olunmuş torpaqlarımızın Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə erməni faşizminin tapdağından azad olunması milli qürurumuzun dirçəlməsi, xalqımızın başının ucaldılması ilə nəticələndi. Şəhidlərimizin qanı bahasına, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın dəstəyi ilə əldə etdiyimiz bu möhtəşəm qələbə tarixi uğur oldu və bundan sonra minilliklər boyu ölkəmizin və xalqımızın inkişafı üçün layiqli şərait yaradacaqdır.

Uzun illərin ardıcıl və fədakar hazırlığından sonra məhz 2020-ci ildə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu bu qələbəyə nail oldu. Düşmənə ağır zərbə vuruldu. Möhtəşəm qələbə qazanıldı. Bu gün Azərbaycan XXI əsrdə dünyada yeni reallıqlar yaradan qalib bir xalq kimi, regionda daha çox hesablaşılan bir ölkə kimi qəbul olunur.

Qeyd etdiyim bu 4 istiqamətdə əldə etdiyimiz mühüm nəticələr həm də Yeni Azərbaycan Partiyasının rəhbəri kimi Azərbaycan Prezidenti cənab İlham Əliyevin və eyni zamanda bu amallara xidmət edən hər bir azərbaycanlının əməyinin nəticəsidir.

Biz artıq yeni reallıqlar dövrünə daxil olmuşuq. Reallıqları biz öz gücümüzlə yaratdıq. Ona görə də yeni dövrün əsas söz sahibi Azərbaycandır.

Xalq və dövlət olaraq artıq bizi düşündürən əsas məsələlər bunlardan ibarətdir: bundan sonra bizi hansı çağırışlar gözləyir, bizim keçmişdə hansı səhvlərimiz olub, bu səhvlərin bir daha təkrar olunmaması üçün hansı addımlar atmalıyıq, dövlətimizin daha da güclənməsi üçün hansı istiqamətdə daha çox inkişaf etməliyik, xaricdən gələn təhlükələrə necə cavab verməliyik və digər məsələlərdir.

2021-ci il martın 5-də YAP-ın VII qurultayında partiyanın Sədri cənab İlham Əliyev bütün bu məsələlərlə bağlı kifayət qədər açıq və geniş nitq söylədi, gələcək iş istiqamətlərini göstərdi. "İqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik" qeyd edən cənab Prezident bundan sonrakı hədəfləri də açıqladı: "Müstəqilliyimizin möhkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir. Müstəqillik deyəndə təbii ki, mən real müstəqilliyi nəzərdə tuturam".

Bu çıxışdan sonra eyni zamanda partiyanın növbəti üç ay ərzində proqramının hazırlanması və bu məsələlərin proqramda öz əksini tapması Prezident tərəfindən qarşıya bir tapşırıq kimi qoyuldu. Bu tapşırıq partiyanın İdarə Heyəti qarşısında qoyuldu. Partiyanın yeni seçilən İdarə Heyəti partiya resurslarının daha da artmasına, qarşıya qoyulan hədəflərə nail olmaq üçün partiyada dinamizmin, funksionallığın daha da yüksəlməsinə çalışmaqdadır.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar YAP-ın yeni proqramının hazırlanmasını şərtləndirən mühüm amillərdəndir. Dövlət başçısı, partiyanın Sədri cənab İlham Əliyevin çıxışında qarşıya qoyduğu vəzifələri rəhbər tutaraq və ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və Vətən müharibəsində möhtəşəm qələbənin yaratdığı reallıqları nəzərə alaraq, partiyanın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlandı və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edildi.

Qəbul olunmuş proqram bir daha göstərir ki, Yeni Azərbaycan Partiyasının rəhbərliyi milli maraqları daim təhlil edir, vətəndaşların daha yaxşı və təhlükəsiz yaşaması məqsədilə dünyada baş verən ən son yenilikləri təhlil edir və buradan irəli gələn çağırışlara cavab verməl üçün partiyanın yenilənməsi və onun qarşısında duran məqsədlərə çatmaq naminə yeni resursların tapılması istiqamətində fəaliyyətlə məşğuldur.

Bu, kifayət qədər təqdirəlayiq haldır. Dövlət başçısının dediyi kimi, biz böyük tarixi uğurlar əldə etmişik və eyni zamanda bundan sonra hansı uğurlar əldə edəcəyimizlə bağlı düşünməliyik. Təbii ki, burada bizim ən böyük rəqibimiz zamandır. Çünki zaman sürətlə axır, dövr sürətlə dəyişir. Belə bir zamanda ölkəmiz qarşısında da çox mühüm çağırışlar vardır. Tarix göstərir ki, indiki dövrdə zamanla ayaqlaşmasaq, biz gələcəkdə bir çox məsələdə geridə qala bilərik. Aparıcı partiya kimi bu barədə düşünmək bizim vəzifə borcumuzdur, bu, eyni zamanda bir missiyadır. Cənab Prezidentin verdiyi tapşırıqların bir çoxu həm də bu missiya ilə bağlıdır.

Partiyanın proqramında əsas hədəflərdən biri də "Güclü iqtisadiyyat və davamlı inkişaf"dır. Qlobal rəqabətin və qeyri-müəyyənliyin artdığı bir dövrdə Azərbaycan davamlı və dayanıqlı iqtisadi inkişaf yolu ilə irəliləyir. İqtisadiyyatın müxtəlif sahələrini əhatə edən islahatların həyata keçirilməsi nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artır. 2020-ci ildə qlobal pandemiyanın iqtisadiyyata və əhaliyə minimum təsirinə nail olan iqtisadiyyatımız 2021-ci ildə artıq 5.6 faizlik artım nümayiş etdirmişdir.

Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər və qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində görülən işlər əhalinin sosial rifahını yüksəldir. Eyni zamanda iqtisadi islahatlar nəticəsində əldə olunan əlavə gəlirlər dövlət büdcəsi vasitəsilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilir.

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan çoxsaylı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində regionların infrastruktur təminatı yaxşılaşır, sahibkarlığın inkişafına təkan verilir, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Əlverişli biznes mühitinin yaradılması Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirir. Haqsız rəqabətlə mübarizə, şəffaflıq prosesinin sürətlənməsi sahibkarlar tərəfindən təqdir olunur.

Azərbaycanda sənaye park və məhəllələrin, texnoparkların yaradılması, istehsal sahələrinin genişləndirilməsi qeyri-neft sektorunun inkişafına mühüm təkan verir. Azərbaycan iqtisadiyyatının neftdən və xarici kapitaldan asılılığının kəskin şəkildə azalması ümumi daxili məhsulda qeyri-neft sektorunun həcmini artırır. İqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilən qeyri-neft sektoru getdikcə öz payını artıraraq ÜDM-in 70 faizinə çatmaqdadır.

Ölkəmizdə sosial-iqtisadi islahatların uğurla aparılması dünyanın bir çox nüfuzlu iqtisadi-maliyyə mərkəzlərinin hesabatlarında da öz əksini tapır. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu, "Moodys", "Fitch Raitings", "Standard and Poors" kimi qurumlar Azərbaycanı dünya reytinq siyahılarında qabaqcıl yer tutan ölkə kimi tanıyırlar.

Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş nəhəng enerji-nəqliyyat layihələri uğurla həyata keçirilir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti istismara verilmişdir. 2020-ci ildə isə "Cənub qaz dəhlizi" layihəsi fəaliyyətə başlamış, artıq Azərbaycan qazı Avropaya ixrac edilməkdədir.

Ətraf mühitin qorunması və ekoloji tarazlığın təmin edilməsi sahəsində məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Bu sahədə qazanılan uğurların nəticəsində ölkəmizin ekoloji təhlükəsizliyi təmin edilir, ətraf mühitə zərərli təsirlərin qarşısını almaq üçün səmərəli mexanizmlər tətbiq olunur.

**Ardı Səh. 6**

# YAP-ın yeni proqramında iqtisadi hədəflər

## 4-cü sənaye inqilabının perspektivləri

**Əvvəli-Səh-5**

Əldə edilmiş bütün bu nəticələri mühüm uğur kimi qiymətləndirən YAP iqtisadiyyatımızın sürətli inkişafı və inklüziv artıma nail olmaq naminə aşağıdakı istiqamətlər üzrə hədəflər müəyyənləşdirmişdir.

**1)** Makroiqtisadi sabitlik və yüksək iqtisadi artım istiqaməti üzrə

YAP davamlı və dayanıqlı iqtisadi inkişafın vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biri olduğunu nəzərə alaraq:

* davamlı inkişaf və iqtisadi artım vasitəsilə ölkədə adambaşına düşən milli gəlirin davamlı artmasına nail olunmasını;

* yüksəkgəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsini;

* milli iqtisadiyyatın şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr"in tapılmasını;

* iqtisadi artımın qabaqcıl və səmərəli özəl təşəbbüslərə əsaslanması, dövlətlə özəl sektor arasındakı əməkdaşlığın möhkəmləndirilməsini;

* özəl sektorda fəallığın və təşəbbüskarlığın daha da gücləndirilməsinin stimullaşdırılmasını;

* qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payının artırılmasını;

* özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun təmin olunmasında başlıca mənbəyə çevrilməsi üçün əlverişli işgüzar mühitin təmin edilməsini;

* yeni və şəffaf özəlləşdirmə strategiyasının həyata keçirilməsini;

* biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsinin artırılmasını;

* innovativ sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasını;

* iqtisadi fəaliyyətdə müasir texnologiyaların geniş tətbiqinin təşviq edilməsini;

* aqrar sektorun intensiv və səmərəli inkişafının stimullaşdırılmasını;

* ərzaq təhlükəsizliyinin gücləndirilməsini;

* iqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafının sürətləndirilməsini;

* bank sektorunda dayanıqlığın təmin olunması, ona etimadın yüksəldilməsini əsas hədəflərindən hesab etmişdir.

Bu hədəflər iqtisadi müstəqilliyimizin təmin edilməsi, insanların maddi rifah halının daim yaxşılaşdırılması, böhran hallarında iqtisadi və sosial dayanıqlılığın qorunması, ölkənin təhlükəsizliyinin qorunması, millimədəni inkişafın təmin edilməsi, sosial məsələlərin həllinə maliyyə imkanlarının yaradılması üçün vacib istiqamətlərdir.

Yeni Azərbaycan Partiyası müasir iqtisadiyyatın inkişafının əsasında bilik-texnologiyalar-əmək-kapital münasibətlərinin həlledici olduğunu nəzərə alaraq ölkə iqtisadiyyatına birbaşa xarici investisiyalar, o cümlədən infrastruktur sahələrinə strateji sərmayəçilərin cəlb edilməsini vacib sayır. Eyni zamanda milli maraqların qorunması və xarici sərmayəçilərə rəqabət mühitinin yaradılması ilə investisiyaların səmərəli tənzimlənməsinin diqqət mərkəzində olmasını vacib sayır.

Yuxarıda göstərilən çağırışları təhlil edərək partiya proqramında bu istiqamətdə öz məqsədlərini də müəyyən etmişdir. Onlar:

* dövlət şirkətlərinin fəaliyyətində iqtisadi səmərənin yüksəldilməsi, bu sahədə şəffaflığın səviyyəsinin artırılması;

* dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılması;

* qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartlarının tətbiq edilməsi və gəlirlilik səviyyələrinin artırılması;

* kölgə iqtisadiyyatının minimuma endirilməsi, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsinin ən yüksək standartlara çatdırılması;

* iqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin yüksəldilməsi və təşviq olunması;

* dövlət maliyyə idarəetməsində intizamın və hesabtlılığın artırılması;

* korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sisteminin təkmilləşdirilməsidir.

**2)** Uğurlu neft strategiyası və qeyri-neft sektorunun inkişafı istiqaməti üzrə

YAP neft strategiyasının uğurla davam etdirilməsi və qeyri-neft sektorunun inkişafı məqsədilə yeni neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin fəaliyyətinin daha da təkmilləşməsini və yaxud yenidən qurulmasını vacib sayır. Bu sahədə partiyanın hədəfləri aşağıdakılardır:

* iqtisadiyyatın klasterlər əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neftkimya zavodlarından ibarət kompleksin inşasının davam etdirilməsi;

* dünya enerji bazarları ilə inteqrasiya əlaqələrinin gücləndirilməsi;

* qeyri-neft sənayesinin inkişafı məqsədilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsinin genişləndirilməsi;

* alternativ (bərpaolunan) enerji mənbələrindən istifadənin sürətləndirilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

* institusional mühitin inkişafı, elmi-texniki potensialın gücləndirilməsi;

* yüksək təhsilə, innovativ biliklərə malik olan mütəxəssis hazırlığının təkmilləşdirilməsi.

Qeyri-neft sektorunun inkişafı sahəsində isə partiyanın hədəfləri aşağıdakılardan ibarətdir:

* bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin müasir səviyyədə qurulması;

* yeni sənaye müəssisələrinin inşasının davam etdirilməsi;

* sənaye müəssisələrində innovasiyayönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması;

* ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin yaradılması;

* qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi;

* ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması;

* ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb olunması məqsədilə səmərəli mexanizmlərin tətbiq edilməsi;

* ixracyönümlü qeyri-neft sektorunun inkişafı üçün dövlət və özəl sektorun investisiya əməkdaşlığının möhkəmləndirilməsi;

* əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli mühitin inkişaf etdirilməsi;

* turizm infrastrukturunun inkişafı, beynəlxalq standartlara cavab verən turizm xidməti sahələrinin genişləndirilməsi;

* müasir texnologiyaların tətbiqi yolu ilə aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni müəssisələrin yaradılması;

* aqrar sektorun intensiv və səmərəli inkişafına dövlət dəstəyinin gücləndirilməsi;

* ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının genişləndirilməsi.

Qeyd etmək istərdim ki, həm neft, həm də qeyri-neft sahələri üzrə müəyyən edilən hədəflər ötən uzun müddət ərzində Azərbaycan hökumətinin uğurla həyata keçirdiyi layihələrə və bu sahədə dünyada baş verən yeniliklərə əsaslanır.

**3)** Daxili və xarici təsirlərə dayanıqlıq istiqaməti üzrə

Azərbaycan iqtisadiyyatı qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan xarici mühitdən təsirlənə bilir. Bunları nəzərə alaraq YAP aşağıdakı hədəfləri müəyyənləşdirmişdir:

* makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi;

* yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivənin formalaşdırılması;

* iqtisadiyyatın şaxələnməsi vasitəsilə qeyri-neft sektorunun payının artırılması;

* dövlət şirkətlərinin borclanmalarına nəzarətin gücləndirilməsi və bu əsaslarda dövlət və kvazi-dövlət borcunun idarəedilməsinin təşkili;

* makroiqtisadi və maliyyə sabitliyini təmin edən institusional idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi.

**4)** Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqaməti üzrə

Azərbaycanın strateji coğrafi mövqeyini nəzərə almaqla, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, xüsusilə Vətən müharibəsində Ermənistanın işğalından azad olunmuş bölgələrdə nəqliyyat infrastrukturunun yaradılması sahəsində YAP aşağıdakı hədəfləri müəyyən etmişdir:

* yerli və beynəlxalq daşımaların idarə olunması mexanizminin təkmilləşdirilməsi;

* ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasının genişləndirilməsi;

* əhaliyə göstərilən nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması;

* idxal, ixrac əməliyyatları və tranzit daşımaları üçün sərf edilən vaxtın qısaldılması və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi;

* ölkənin yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması;

* paytaxtın, habelə digər şəhər, rayon və kəndlərin ictimai nəqliyyat sisteminin təkmilləşdirilməsi;

* Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müasir tələblərə cavab verən nəqliyyat infrastrukturunun yaradılması.

**5)** Ətraf mühit və ekoloji tarazlıq istiqaməti üzrə

Dünyada iqlim dəyişikliyi, ərzaq qıtlığı, ekoloji fəlakətlərin artması YAP-ın bu istiqamətlərə xüsusi diqqət yetirməsinə səbəb olmuşdur. YAP ətraf mühitin qorunmasını əsas hədəflərindən biri hesab etmiş və bu sahədə aşağıdakı hədəfləri müəyyənləşdirmişdir:

* biomüxtəlifliyin təmin edilməsi, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin qarşısının alınması;

* yaşıl ərazilərin sahəsinin genişləndirilməsi;

* meşə sahələrinin ümumi torpaq sahələrinə nisbətinin artırılması;

* təbii sərvətlərdən səmərəli istifadə və ətraf mühitin qorunması məqsədilə tullantıların zərərsizləşdirilməsi;

* sənaye və məişət tullantılarının təkrar emalı üçün yeni müəssisələrin yaradılması;

* iri sənaye və dağ-mədən obyektlərinin fəaliyyəti nəticəsində yararsız vəziyyətə düşmüş torpaqların bərpası;

* kənd təsərrüfatına yararlı torpaqlardan istifadə sisteminin təkmilləşdirilməsi;

* qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqi;

* su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə;

* iqtisadi inkişafla ekoloji mühit arasında tarazlığın təmin olunması;

* bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;

* əhalinin ekoloji maarifləndirilməsində yaxından iştirak.

İqtisadi inkişafın bütün sahələrini və ona dəstək olacaq ekomühitin yaradılmasını əhatə edən bu hədəflər ölkəmizin daim müstəqil və güclü olmasının təmin edilməsinə xidmət göstərəcəkdir.

Bütün bu hədəflərlə yanaşı, partiya qarşısında həm də qlobal çağırışlara cavab vermək kimi mühüm vəzifələr də yaranmaqdadır. Bəşəriyyətin qədəm qoyduğu

4-cü sənaye inqilabı bütövlükdə insan münasibətlərini dəyişir. Təkcə partiyaların yox, insanlar arasında da geniş ünsiyyətin qurulmasının tarixinə baxsaq, görərik ki, kollektiv iştirak - dəyərləri paylaşmağı, faydalı informasiyanın daha çox insanlar arasında yayılmasını təmin edən alət olmuşdur. Amma artıq bu sahədə ən güclü alət internet olmağa başlamışdır. Bu gün nəinki Azərbaycanda, bütün dünyada siyasi partiyalar qarşısında bu çağırış durur. Biz bu reallığı daha çox araşdırmalı, qəbul etməli, onun üstün və mənfi cəhətlərini bilməliyik, bu aləti öz işimizdə daha çox istifadə etməyi bacarmalıyıq. Digər tərəfdən isə insanların hansı informasiyaların düzgün, hansıların isə yalan olduğunu seçmək qabiliyyətlərini artırmalıyıq. Bu, eyni zamanda dövlətin qarşısında duran çox mühüm bir vəzifədir.

Partiyanın qəbul etdiyi yeni proqram siyasi ardıcıllığın bariz nümunəsidir. Partiyada nəsillərarası əməkdaşlıq təcrübəsindən istifadə etmək, eyni zamanda yeni gənc qüvvələr vasitəsilə bu təcrübənin yeni metodlarla və dəyərlərlə yayılmasını təmin etmək istiqamətində atılan addımlar müəyyən edilən hədəflərə çatmağa dəstək olacaqdır. Bu gün ideyaların, dəyərlərin yayılmasında ən yeni metod olan rəqəmsal vasitələri daha çox qavramaq, bundan daha çox istifadə etmək, eyni zamanda ən önəmli məsələlərdən biri yeni məzmun və yeni gündəliyin yaradılması qarşımızda duran əsas çağırışlardandır. Bu gün YAP qeyd etdiyimiz məsələlərə nail olmaqla Azərbaycanda daim müasir texnologiyalardan istifadə edə bilən, eyni zamanda bu texnologiyalar vasitəsilə yeni gündəlik yarada bilən, yeni ideyalar və dəyərlər yayan bir partiya olmağı qarşısına hədəf qoyub və buna ardıcıl olaraq nail olmaqdadır. Bu, eyni zamanda partiyanın ənənəvi funksiyalarından bəhrələnmək və yeni çağırışlara cavab verməklə siyasi səhnədə gənc və orta nəsildən olan şəxslərin siyasi cəhətdən daha da püxtələşməsi, onların yüksək davranış nümayiş etdirməsi kimi bir vəzifəni qarşıya qoymaqdır ki, bu da indiki dövrdə çox mütərəqqi bir vəzifədir.

Əminəm ki, qəbul edilmiş proqramda müəyyən edilmiş hədəflərə nail olmaqla biz partiyanın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin "gələcəyin partiyası olmaq" missiyasını əzmlə davam etdirəcəyik.

***Tahir Mirkişili***
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

***Türk dünyasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamənin, "Şuşa Bəyannaməsi"nin imzalanması tarixi bir addım olmaqla, iki qardaş ölkənin sarsılmaz birliyini bir daha təsdiq etdi, isbatladı. Ən başlıcası, bu Bəyannamə Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının konseptual istiqamətlərini müəyyənləşdirdi. "Şuşa Bəyannaməsi" eləcə də iki qardaş ölkənin gələcək müştərək müvəffəqiyyətlərinə yol açan yeni mərhələnin əsasını qoymuş oldu.***

# "ŞUŞA BƏYANNAMƏSİ"



# müttəfiqlik nümunəsidir



TƏHLİL

İki qardaş ölkənin, Türkiyə və Azərbaycanın ortaq dəyərləri, maraqları hər iki ölkənin inkişaf dinamikasına öz müsbət təsirini göstərməkdədir və bu dəyərləri, eləcə də maraqları liderlərin qətiyyəti, siyasi iradəsi hər zaman təminat altına alır. Ölkəmizin öz müstəqilliyini bərpa etməsindən bu vaxta qədər keçən 31 il ərzində Azərbaycanla Türkiyənin müttəfiqlik səviyyəsinə çatması heç də təsadüfi deyil. Bir zaman Ulu Öndər Heydər Əliyevin Türkiyənin o zamankı Prezidenti Süleyman Dəmirəllə ortaq layihəsi olan, Araz çayı üzərində inşa edilən "Ümid Körpüsü"nün təməlinin qoyulması sözün əsl mənasında əbədi qardaşlıq yolunun təməli kimi tariximizə həkk olundu və daha böyük körpülərin, yolların, nəticədə də müttəfiqliyin əsasını qoydu. Ümummilli Liderimizin "Bir millət, iki dövlət" konsepsiyası ortaq inkişaf strategiyasını formalaşdırdı və qardaşlığımız artıq bütün dünya üçün nümunə hesab olunur, hansıki bu qardaşlığın inkişaf, tərəqqəi, sabitlik və sülh vəd etdiyi, eləcə də gətirdiyi günümüzün reallığıdır.

Ölkə rəhbəri cənab Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki qardaş ölkə arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdı və "Şuşa Bəyannaməsi" imzalanan zaman bütün dünya bunun, bu reallığın şahidi oldu və müttəfiqliyimizə tam əmin oldu. Bəli, iki qardaş ölkə arasında olan münasibətlərin ən qürurverici məqamı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də həm siyasi - diplomatik, həm millimənəvi, həm də hərbi-strateji əhəmiyyət kəsb edən Şuşada rəsmi qarşılanma mərasimi və ardınca da "Şuşa Bəyannaməsi"nin imzalanması oldu, hansı ki, bu imzalanma bədnam qonşularımız üçün kapitulyasiya sənədinə imza atmalarından da artıq zərbə sayılır. Çünki bu Bəyannamə iki qardaş ölkənin tarixi sınaqlardan birgə, üzü ağ, alnıaçıq çıxdığının, eləcə də "Bir millət, iki dövlət" konsepsiyasına sadiqliyinin təntənəsi idi.

"Şuşa Bəyannaməsi"nin məhz Azərbaycan xalqının Qurtuluş günündə, 15 iyun tarixində imzalanması heç də təsadüfi deyil. Beləki, bu Bəyannamənin Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısının, cənab Prezident İlham Əliyevin Qars müqaviləsini hər kəsin yadına salması da əbəs yerə, yaxud da təsadüfi deyildi. "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb, bu da böyük rəmzi məna daşıyır və yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir", deyən ölkə rəhbərimiz hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirildiyini diqqətə çatdırır.

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir və bununla bütün dünya barışmaq məcburiyyətindədir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş iki qardaş ölkənin başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bundan sonra bütün qonşu dövlətlər və dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

"Şuşa Bəyannaməsi" əslində Azərbaycanla Türkiyə arasındakı əlaqələr müstəvisində artıq mövcud olan faktiki vəziyyəti əks etdirir və bu Bəyannamənin önəmi həm də "3+3", yəni "Azərbaycan, Gürcüstan, Ermənistan + Türkiyə, İran, Rusiya" formatında altıtərəfli platformanın yaradılması ilə bağlı bölgə dövlətlərinə çağırışdır. Məhz bu baxımdan "Şuşa Bəyannaməsi" regionda dayanıqlı sülhün, stabilliyin və inkişafın təminatçısı da sayıla bilər.

Sözsüz ki, "Şuşa Bəyannaməsi" təsdiq etdi ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlərin bütün dünyada analoqu yoxdur. Bir sözlə, Şuşada imzalanan Bəyannamə, "Şuşa Bəyannaməsi" müttəfiqlik nümunəsidir. Çünki, iki qardaş ölkə qarşılıqlı münasibətlərin beynəlxalq səviyyədə mövcud olan şərtlər nəzərə alınmaqla, onlara tam əməl edilməklə qurulduğunu təsdiq edirlər. "Şuşa Bəyannaməsi" tarixi, milli, regional və qlobal miqyaslı siyasi-hüquqi təmələ söykənir və sənədin konkret müddəalarına nəzər saldıqda iki ölkə arasında, region ölkələrini əhatə edən və daha geniş geosiyasi məkanda təsir gücü ola biləcək çox aktual və maraqlı məqamları görə bilirik.

Parlamentin yaz sessiyası çərçivəsində fevralın 1-də keçiriləcək ilk plenar iclasının gündəliyinə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" "Şuşa Bəyannaməsi"nin təsdiq edilməsi barədə" qanunun layihəsi daxil edilib. Bir sözlə, Milli Məclis Şuşa Bəyannaməsini təsdiq edəcək. Əlbəttə ki, regionda yeni inkişaf mərhələsinin əsası qoyulur. Bu, xüsusən iki ölkə arasında artan iqtisadi-ticarət əlaqələrin getdikcə daha da genişlənməsi, potensialın artması deməkdir. Hər iki ölkənin məram və məqsədi iqtisadi cəhətdən bölgənin daha da inkişaf etdirilməsinə, sülhün daimi olmasına, bölgə xalqlarının firavan yaşamasına şərait yaratmaqdan ibarətdirsə, "Şuşa Bəyannaməsi"nin təsdiq edilməsi iki qardaş ölkənin müttəfiqliyik nümunəsinin məntiqi zirvəsinə yüksəlişi deməkdr.

***İnam Hacıyev***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*




# 100 yaşlı azərbaycanlı qəhrəman: Leninqrad blokadasından dəhşətli xatirələr

**Fatma Səttarova: "Leninqrad blokadasının nə olduğunu sözlə ifadə edə bilməzsiniz. Bu, dəhşətli bir şey idi..."**

Azərbaycanlı Fatma Səttarova bütün Böyük Vətən Müharibəsini keçərək Berlinin özünə qədər gedib. Cəbhədə gənc tibb bacısı xeyli insanın həyatını xilas edib. Bu günlərdə Fatma Səttarova 100 illik yubileyini qeyd etdi və əsas hədiyyəni Azərbaycan Prezidenti İlham Əliyevdən aldı. Dövlət başçısı Azərbaycan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədrinə respublikanın ictimai həyatında uzun illər səmərəli fəaliyyətinə görə "İstiqlal" ordenini təqdim edib. Fatma Səttarova "Moskva-Baku" portalına müsahibəsində cəbhəçi keçmişindən danışıb, müharibə xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Ən yüksək mükafatı almağınız münasibətilə təbrik edirəm. Azərbaycan prezidentinin əlindən "İstiqlal" ordenini alacağınızı biləndə hansı hissləri yaşadınız?***

- O qədər sevindim ki, bu sevincin həddi-hüdudu yox idi. Təbii ki, mənim yaşımda belə bir orden almaq böyük xoşbəxtlikdir. 100 il yaşa, ömrün boyu Vətəninə, xalqına xidmət et. Nə yaxşı ki, mənim xidmətlərim, əməyim qiymətləndirilir. Yubileyimdə belə bir hədiyyəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edirəm. Yəqin ki, Azərbaycanın ən xoşbəxt qadınıyam. Mən uzun ömür sürdüm, çox çətinliklərdən keçdim, ölkəmin rifahı üçün zəhmət çəkdim, övladlarımı, nəvələrimi, nəticələrimi böyütdüm. Və 100 il yaşadım!

***- Siz bütün Böyük Vətən Müharibəsindən keçib Berlinə çatdınız. Siz Moskvanın müdafiəsində iştirak etmisiniz. Bizə o vaxtdan danışın.***

- Mən leytenantam, tibb işçisiyəm. Müharibə başlayanda Tibb Texnikumunu bitirən qızlarla İçərişəhərin Qoşa Qala yaxınlığında yerləşən Bakı hərbi komissarlığına getdik. Hərbi biletlərimizi təqdim etdilər. Hərbi komissarlıq bizə əşyaları yığmaq üçün 3 gün vaxt verdi. Üç gündən sonra dəmiryol vağzalına getdik, orada artıq 15 çağırışçı bizi gözləyirdi. Müharibənin elə ilk illərində 600 mindən çox Azərbaycan kişisi və 200 min qadın cəbhəyə getdi.

Hər maşına bir həkim və bir tibb bacısı təhkim edilib. Bakıdan almanlardan müdafiə olunmalı olan Moskvaya tərəf getdik. Yolda bizi bombaladılar, qorxulu idi. Biz Moskva vilayətinə çatanda artıq şiddətli döyüşlər gedirdi. Döyüşçülərin bizə dediyi kimi, almanlar Moskvanı tutmaq və Stalini ələ ke-











Barjalar və kiçik gəmilərin yaralıları donmuş Ladoqa gölündən keçirdiklərini xatırlayıram. Yeriyə bilməyənləri barjalara mindirib arxaya göndərdik. Lakin bütün qayıqlar təyinat yerinə çatmadı. Almanlar havadan bombaladılar. Bəziləri almanların atəşini yarıb sahilə çata bildi. Mühasirəyə alınmış Leninqradda 40 dəhşətli gün keçirdim. Ta ki, Sovet ordusu blokadanı yararaq almanları geri oturdanadək. Beləliklə, xilas olduq. Aclıqdan yarı ölü idik, amma sağ qaldıq.

***- Leninqrad blokadasından sağ çıxandan sonra yenidən cəbhəyə getdiniz?***

- Əlbəttə. Kifayət qədər tibb bacısı yox idi. Çoxları öldü. Oradan bizi Stalinqrada göndərdilər. Onlar da yaralı əsgərləri xilas edib onlara qulluq edirdilər. Beləliklə, addım-addım Berlinə çatdıq. Yolda Sovet ordusu Rumıniya və Macarıstanı faşist işğalçılarından azad etdi.





***- Sovet ordusunun qələbəsini Berlində qarşıladınız?***

- Yox. Qələbədən bir neçə gün əvvəl yaralandım- qəlpə sağ qoluma və ayağıma dəydi. Mən kifayət qədər mürəkkəb əməliyyata dözməli oldum. Ayağımdakı parçaları çıxara bildim, amma qolumu əməliyyat etməkdən imtina etdim. Həkimlərə dedim ki, mən qadınam və bu əl gələcəkdə də mənə faydalı olacaq. Ev təsərrüfatını idarə etməli, uşaq böyütməlisən. Oh, mən o zaman əməliyyata razı olmalıydım! Çünki ayaq hələ işləyir, amma qol işləmir. Mən cavan və bir az dolğun olanda, bu, özünü hiss etdirmirdi. Və yaşlandıqca onları bədənimdə hiss edirəm. Bu, əlbəttə ki, ağrıyır. Amma dözürəm, amma nə edə bilərsən? O müharibədən xatirə kimi nəsə qalmalı idi. Mən müharibəyə gedəndə artıq evli idim. Həyat yoldaşım Məmməd Səttarov arxa cəbhədə idi, həm də cəbhəyə kömək edirdi. Müharibə illərində sursat istehsalına yönləndirilən Pyotr Montin maşınqayırma zavodunu idarə etdi. Mən bir neçə döyüşçü qız yoldaşımla cəbhədən qayıdan kimi Azərbaycan SSR Kommunist Partiyasının 1-ci katibi Mircəfər Bağırova ərizə göndərdilər ki, bizi imtahansız instituta yazdırsınlar. Axı biz ömrümüzün tam 5 ilini müharibəyə vermişik. Və xahişimizi yerinə yetirdi. Qızlar Tibb İnstitutuna, mən isə Belarus Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə daxil oldum. Mən tibb sahəsinə getmək istəmirdim. Müharibədə çoxlu ölüm və kədər gördüm. Eyni zamanda, Plexanov adına Moskva İqtisad Universitetinin qiyabi şöbəsini də bitirmişəm. Deməli, mənim çox fəxr etdiyim iki ali təhsilim var!

***- Neçə övladınız, nəvəniz, nəticəniz var?***

Dörd uşaq böyütdüm- üç oğul və bir qız. Mən ərimi erkən itirdim. Övladlarımı tək böyütmüşəm və onlarla çox fəxr edirəm. Ortancıl oğlum akademikdir, hazırda ABŞ-da yaşayır və işləyir. Bu yaxınlarda böyük oğlumu dəfn etdim. 4 uşaq qoyub getdi. Çox böyük ailəmiz var. 11 nəvəm, 25 nəticəm var. Ən böyük nəticəm Sonyanın 30 yaşı var. Çində yaşayır, universitetdə ingilis dilini öyrədir. Hərdən Çindən mənə zəng edir, mən də ona deyirəm: "Sona, artıq evlən!". O isə mənə cavab verir ki, "hələ vaxtı deyil". Mən birtəhər ona təsir etməyə çalışıram: "Vaxtdır! Mənim yaşımda evlənəcəksən?" Nəticəm ancaq gülür... Bu gün Amerikada yaşayan oğlum, nəvələrim, nəticələrim məndən onların yanına köçməyimi xahiş edirlər. Amma mən bunu heç vaxt etməyəcəyəm. Onlara deyirəm: - "Məni görmək istəyirsiniz? Azərbaycana gəlin". Və hər yay məni ziyarətə gəlirlər.

***- Fatma xanım, siz uzun və çətin ömür yaşadınız, hər şeyə rəğmən sağ qaldınız. Uzunömürlü olmanızın sirri nədir?***

- Xüsusi resept yoxdur. Gərək ədalətli insan olasan, reallığı qəbul edəsən, yaşayasan, övlad böyüdəsən, vətənə, xalqına xidmət edəsən. Biz xalqdan ayrı yox, xalqla getməliyik. Bütün gəncliyimi müharibəyə vermişəm. Cəbhədən qayıtdım, uşaq doğdum, oxudum, ərimi erkən itirdim. Övladlarım ata yoxluğunu hiss etməsinlər deyə, onlara həm ana, həm də ata olmağa çalışdım. Mənim üçün çətin idi. Bəzən gecələr ağlayırdım ki, uşaqlar göz yaşlarımı görməsin. Uşaqlar mənə həmişə hörmət ediblər, çünki bunun qarşılıqlı olduğunu hiss ediblər. Evləndim və uşaqlarımı evləndirdim. Nəvələrimi böyütdüm. Bütün ömrüm boyu işləmişəm. Uzun müddət iaşə sahəsində çalışdım: bütün iaşə müəssisələrinin tabe olduğu orqana rəhbərlik etdim. Həyatım belə keçdi. Gözlərimi açdım və artıq 100 yaşım var! Allah bütün ləyaqətli qadınlara belə ömür sürməyi nəsib etsin. Həyatda çalışmalısan, mübarizə aparmalısan. Məşhur mahnıda deyildiyi kimi: həyatda çalışan adam heç vaxt heç yerdə yox olmaz. Həyatı istədiyin kimi yox, onun səni apardığı yoldan keçməyi bacarmalısan. Bir sözlə xoşbəxt həyat sürmüşəm. Həyatdan şikayətlənəcək bir şeyim yoxdur...

***Samirə Kazımova,***
***Ruxin Kərimov,***
***Din Bitsoyev***
***Tərcümə - Elçin Bayramlı***

## "Hərbi islahatların davam etdirilməsi 2022-ci ildə də prioritet məsələ olacaq"



***Hərbi islahatların davam etdirilməsi və qoşunların döyüş qabiliyyətinin, o cümlədən əməliyyat imkanlarının daha da artırılması 2022-ci ildə də prioritet məsələ olacaq.***

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 28-də Müdafiə Nazirliyində keçirilmiş kollegiya iclasındakı çıxışında deyib.

İclasda 2021-ci ildə xidməti-döyüş hazırlığının yekunları və 2022-ci tədris ilində qarşıda duran əsas vəzifələrdən danışan müdafiə naziri bildirib ki, ötən illərdə olduğu kimi, cari ildə də əsas diqqət Silahlı Qüvvələrin Ali Baş Komandanının Azərbaycan Ordusunun qarşısında qoyduğu bir sıra vacib tapşırıqların və bundan irəli gələn mühüm məsələlərin həllinə yönəldilib. 2021-ci ildə Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətinin təhlili qarşıya qoyulan bütün tapşırıqların tam həcmdə yerinə yetirildiyini göstərib.

# “Rusiyanın təhrik edilməsinin bir neçə səbəbi var”

***Artıq Ukrayna üzərindən Amerika və onun NATO müttəfiqləri ilə Rusiya arasında münasibətlər kifayət qədər gərgin bir mərhələyə daxil olub və Qərb analitiklərinin, Qərb mətbuatının yazdığına görə hər an Rusiya tərəfindən Ukrayna ərazilərinə hərbi müdaxilələr gözlənilə bilər, proqnozlar məhz bu istiqamətdədir, amma Rusiya tərəfi dəfələrlə bəyan edib ki, Rusiyanın Ukrayna ərazisinə hər hansı bir hərbi müdaxilə etmək fikri, niyyəti yoxdur. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Anar Əliyev deyib.***

Politoloqun sözlərinə görə, bu proseslərin təhlili onu göstərir ki, sanki Ukrayna məsələsində Qərb dairələri, xüsusilə Amerika dairələri tərəfindən Rusiya məqsədli şəkildə təxribata təhrik edilir, məhz Rusiya Ukraynaya təxribata təhrik edilir.



”Sanki Qərb qüvvələri, Amerika və onun NATO müttəfiqləri üçün Rusiyanın Ukraynaya müdaxiləsi qaçılmaz bir variant kimi qiymətləndirilir və hesab edilir ki, Rusiya bu müdaxiləyə ciddi şəkildə hazırdır, gözlənilməyən bir anda bu hərbi müdaxilə baş verəcəkdir. Mən hesab edirəm ki, Amerika və NATO müttəfiqləri tərəfindən bu təəssüratın, bu görüntünün yaradılmasının və Rusiyanın bu müdaxiləyə təhrik edilməsinin bir neçə çox mühüm, vacib səbəbi var. Birincisi, təbii ki, burada Qərb NATO-nun, xüsusən Amerikanın Avropa dövlətləri tərəfindən NATO tərkibində, NATO daxilində mərkəzdənqaçma meyillərinin qarşısını almağa istiqamətlənmiş hədəflər mövcuddur. Xüsusilə, Almaniya, Fransanın timsalında biz artıq yaxın keçmişimizdə dəfələrlə müşahidə etdik ki, NATO-nun alternativinin yaradılması ilə bağlı fikirlər səsləndi, Avropa ordusunun qurulması ilə bağlı fikirlər səsləndi. Hətta fransa prezidenti bir qədər də irəli gedərək, NATO-nun beyin ölümü keçirdiyi ifadəsini işlətdi və bununla da NATO-nun bir hərbi- siyasi qurum olaraq perspektivi və gələcəyi təhlükə altına düşmüş oldu. Məhz bu təhlükəni, bu riskləri aradan qaldırmaq üçün Avropanın daim Rusiyanın təhdidləri və aqressiyası altında olduğu görüntüsünü yaratmaqla, Amerika həmin dövlətləri məhz Amerikanın qorumasına ehtiyacı olduğunu, ehtiyac duyduğunu sübut etməyə, göstərməyə çalışır və bununla da həmin dövlətlərin yenidən NATO ətrafında, ABŞ ətrafında daha sıx birləşməsi, bir hədəfə vurma ehtiyacının, zərurətinin mövcudluğunu sübut etmək, təsdiq etmək istəyir. Daha doğrusu buna nail olmaq istəyir.

İkincisi isə, hesab edirəm ki, burada vacib məsələlərdən biri xüsusilə 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərindən fərqli olaraq artıq Rusiya qlobal liderlik uğrunda mübarizəyə başlayıbdır. Artıq regiona lider deyil, qlobal liderlərdən biri olduğunu və yeni dünya düzənində Rusiyanın maraqlarının nəzərə alınmalı olduğunu və bu zərurətin Qərb dairələri tərəfindən qəbul edilməsinin vacib olduğunu sübut etməyə çalışır. Mən onu da qeyd edim ki, bir sıra ərazilərdə Rusiya artıq Amerika və onun müttəfiqlərinə qarşı kifayət qədər aktiv fəaliyyət göstərməyi və onların maraqlarına zərbə vurmağı bacarıbdır. Məsələn, Liviyada baş verən hadisələr zamanı, eyni zamanda xüsusilə Suriyada baş verən hadisələr zamanı biz rahat şəkildə, açıq şəkildə, hətta Cənubi Qafqazda baş verən hadisələrdə və Gürcüstanda baş verən hadisələr, həmçinin Qazaxıstanda baş verən hadisələrdə Rusiyanın davranışları və atdığı addımlar onu göstərdi ki, Rusiya kifayət qədər sərt və aqressiv addımlar atmağı bacaran, öz maraqlarını rəqibləri qarşısında müdafiə etməyi bacaran, kifayət qədər güclü və riskli addımlar atmağı bacaran bir dövlətdir. Bu mənada mən hesab edirəm ki, Amerika Ukraynada Rusiyanı hərbi müdaxilələrə cəlb etməklə, onu bataqlığa çəkmək və onun qlobal güc iddialarını zəiflətmək, qlobal gücdən regional güc, qüvvə səviyyəsinə salmağa çalışır.

Üçüncü mühüm səbəblərdən, məqsədlərdən biri də keçmiş Sovet respublikaları, xüsusilə MDB respublikalarının, MDB dövlətlərinin daim Rusiyanın aqressiyası və işğalı təhlükəsi altında olduğunu göstərmək, bununla da həmin aqressiyadan və işğal faktından onları xilas edə biləcək qüvvənin Amerika və NATO olduğu görüntüsünü yaratmaqla həmin dövlətlərin MDB respublikalarının Rusiya ətrafında deyil, Rusiyaya yaxınlıqla deyil, Amerikaya və NATO müttəfiqlərinin yanında yer almaq zərurətini nümayiş etdirməyə çalışır. Mən hesab edirəm ki, proseslər daha da gərginləşmək istiqamətində davam edəcəkdir. Amma Rusiya da Qərb dövlətlərinə, Qərb rəqiblərinə qarşı əlində olan mexanizmlərdən, rıçaqlardan istifadə etməyə başlayıb. Artıq Avropaya yanacaq, neft ixracını 14 faiz azaldıbdır. Bununla artıq neft qiymətlərində sıçrayışlı artımlar baş verməyə başlayıb və yaxın perspektivdə Avropanın enerji təhlükəsizliyində çox mühüm rol oynayan Rusiyanın qaz təchizatına da baxma ehtimalları mövcuddur və bununla da Avropa enerji təhlükəsizliyi məsələsində ciddi problemlərlə üzləşə bilər.

Mən hesab edirəm ki, Ukrayna üzərində aparılan mübarizə hər iki tərəfin nələri əldə edə biləcəyi və ya nələri güzəştə gedə biləcəyi tam aydınlaşdırıldıqdan sonra münasibətlər səngimə mərhələsinə daxil olacaqdır və çox qısa, kiçik, lokal hərbi toqquşmaları çıxmaq şərti ilə ciddi, böyük, qlobal döyüşlərin, müharibənin baş verməsi ehtimalı kifayət qədər zəifdir. Tərəflərin heç biri buna hazır deyil. Tərəflərin hç biri qlobal, böyük müharibənin onun maraqlarına xidmət etmədiyini və etməyəcəyini çox yaxşı dərk edir. Bu baxımdan hesab edirəm ki, Ukrayna üzərindən gərginliyin böyük bir münaqişəyə çevrilmə ehtimalı indiki şəraitdə mövcud deyil və yəqin ki, yaxın günlərdə münasibətlərin tənzimlənməsi və gərginliklərin səngiməsi prosesinin şahidi ola biləcəyik”, deyə politoloq Anar Əliyev bildirib.

***İnam Hacıyev***

# “3+3” formatı ölkəmizin iqtisadi manevr imkanları genişlənəcək



***“"3+3" formatının regiona siyasi və iqtisadi təsirləri böyük olacaq. Əvvəla siyasi təsirlərindən danışmaq lazımdırsa qeyd etməliyəm ki, bu formatın reallaşmağı nəticəsində Azərbaycan və Türkiyə regional siyasi oyunçudan qlobal siyasi oyunçuya çevrilmiş olur və bütövlükdə bu ideyanın cənab Prezident İlham Əliyevə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən irəli sürülməsi bölgəsəl məsələlərdə Azərbaycan və Türkiyənin liderliyini bir daha sübut etmiş olur". Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Tural İsmayılov deyib.***

Tural İsmayılov qeyd edib ki, eyni zamanda uzun illər apardığı ideoloji qəsbkarlıq siyasəti və Azərbaycan və Türkiyəyə qarşı ifrat nifrəti dövlət siyasətinə çevirməyi fonunda zəifləmiş və gözdən düşmüş Ermənistanın özü üçün də ”3+3” siyasi nəfəslik rolu oynayacaq: ”Həmçinin Rusiya hazırda Ukrayna və bir sıra digər məsələlərə görə Qərb tərəfindən siyasi təzyiqlərlə üz-üzə qalıb. ”3+3” formatı Rusiyanın da yeni əməkdaşlıq perspektivlərinə açıq olduğunun görüntüsünü yaradacaq və eyni zamanda regionun önəmli dövlətlərindən biri kimi prosesə Rusiyanın siyasi xəttinin daha da çəki qazanmağına səbəb olacaq. İqtisadi təsirləri isə çox böyük olacaq. Nəzərə almaq lazımdır ki, Azərbaycan onsuz da Qərbin enerji təhlükəsizliyində kilid ölkələrdən biridir. ”3+3” formatı nəticəsində ölkəmizin iqtisadi manevr imkanları genişlənəcək ki, nəticədə bütövlükdə dövlət büdcəsinə yeni daxilolmalara və həmin bu yeni daxilolmalar da ölkəmizdə daimi yer xarakter alan sosial-iqtisadi islahatlara səbəb olacaq.

Türkiyənin buradan böyük faydaları və qazancları olacaq. Türkiyə əsas ötürücü və tranzit ölkəsi kimi burada mühüm rol oynaya bilər. Nəzərə almaq lazımdır ki, Avrasiyadan Avropaya qədər uzanan mühüm xəttə Türkiyənin daha kilid mövqeyə yüksəlməyində ”3+3” formatı birmənalı dəyər daşıyır. Eyni zamanda Rusiyaya ona və mallarına qarşı tətbiq edilən iqtisadi embarqolardan canını qurtarmaq üçün bu prosesdə fəal olmalıdır”.

Politoloq vurğulayıb ki, İran uzun illərdir ki, bir sıra maliyyə bazarlarına çıxışlarını itirib: ”3+3” formatı İranın da iqtisadi diverfikasiya imkanlarını genişləndirəcək. Hətta bu yöndə artıq Aşqabadda İran, Türkmənistan və Azərbaycan arasında üçtərəfli qaz sazişi imzalanıb ki, bu ”3+3” formatı çərçivəsində iqtisadi layihələr üçün başlanğıc və siqnal xarakter də daşıya bilər. Eyni zamanda ən əsası da Ermənistan əgər ağıllı olsa provakasiyalar etməsə, bundan sonra regionda kimlərinsə oyuncağına çevrilib klassik təxribatçılıq üsullarından əl çəksə, mən düşünürəm ki, dağılmış Ermənistan dövlət büdcəsi də qısa bir zamanda yenidən özünü bərpa edə biləcək.

Bütövlükdə ”3+3” formatı pandemiyadan sonrakı dünyanın siyasi-iqtisadi mənzərəsini formalaşdıracaq, bu baxımdan da qlobal əhəmiyyətə malikdir”.

***Rüqəyya Orucova***

# Təhsil gələcəyimizin uğurlu təminatıdır

***Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu zamanəmizin qabaqcıl və humanizm prinsiplərinə əsaslanan fəaliyyəti ilə beynəlxalq miqyasda böyük nüfuz qazanıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və məqsədyönlü fəalliyyəti nəticəsində Fond fəaliyyəti dövründə müxtəlif sahələri əhatə edən çoxsaylı layihələr reallaşdırmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurmuş, Bakıda bir sıra dövlətlərin iştirakı ilə möhtəşəm konfrans və festivallar keçirməyə müvəffəq olmuşdur.***

Mehriban xanım Əliyevanın peşəkarcasına fəaliyyəti nəticəsində bir-birinin ardınca Azərbaycanın mənəvi inciləri dünya qeyri-maddi mədəni irs siyahısına salınır. Ölkəmiz sözün əsl mənasında fərqli sivilizasiyaların və mədəniyyətlərin dialoqu və ortaq məxrəc axtardığı məkana çevrilir. Bir-birindən vacib və əhəmiyyətli layihələri həyata keçirərək siyasətçi, diplomat, ictimai xadim yolunu seçən Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın himayəsi altında reallaşan humanitar aksiyaların sayı-hesabı yoxdur. Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından birmənalı olaraq çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. Bunların hər biri Fondun qısa zamanda məqsəd tək qarşıya qoyduğu amalın reallaşması nəticəsində baş tutub. Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq Fondun məqsədi olaraq özünü büruzə verir. Bu sırada məktəb binalarının tikintisi, bərpa və yenidən qurulması, dərsliklərlə təchizatı Fondun ana xətt kimi fəaliyyətində davamlı olaraq həyata keçirilir.

Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində






respublika üzrə 30-dan artıq uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş, kommunal şərait yaxşılaşdırılmışdır. Eyni zamanda, uşaq evləri və internat məktəblərində kitabxanalar yaradılmış, müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, bu müəssisələrin əksəriyyətində kompüter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Mehriban xanım Əliyeva öz qüvvəsini və fondun əməkdaşlarının səylərini əhalinin ən zəif müdafiə olunan təbəqələrinə yönəltmişdir. Uşaq evlərində tərbiyə alan gənclərin mənzillə təmin olunması kimi daim cəmiyyətimizi narahat edən mühüm problemin həllinə də məhz Mehriban Əliyevanın xeyirxahlıq missiyası sayəsində nail olunmuşdur. Paytaxtdan başlayan və ilk növbədə qayğıya daha çox ehtiyacı olan, valideyn himayəsindən məhrum qız uşaqlarının mənzillə təmin olunmasını nəzərdə tutan layihənin icrası ölkəmizdə Mehriban Əliyevanın bu nəcib missiyanın nə qədər ali və müqəddəs olduğunu təsdiq etmişdir. Azərbaycanın Birinci Xanımının təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda 50 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

Fondun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı həm paytaxtımızda, həm bölgələrdə həyata keçirilir. Bu yeniləşmə təhsil sistemində özünü göstərir. Azərbaycanın gənc nəslini biliyə, müasir texnologiyalara, elmə yiyələnməsi, dünya təhsil sisteminə inteqrasiya olunması prosesini gücləndirir.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı əsasında təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla proqram çərçivəsində minlərlə şagirdin müasir standartlara cavab verən məktəblərdə təhsili almasına imkan yaradılmışdır.

ŞƏRH

Heydər Əliyev Fondunun layihəsi olan "Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Fond bu layihə çərçivəsində Azərbaycanın bütün birinci sinif şagirdlərinə və Gürcüstandakı soydaşlarımızın təhsil aldığı məktəblərin birinci sinif şagirdlərinə yeni dərslik və tədris ləvazimatları hədiyyə edir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın Dmanisi rayonunda yeni elmi-tədris mərkəzinin binası tikilmiş, əyani vəsaitlərlə təmin edilərək soydaşlarımızın istifadəsinə verilmişdir.



Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına və Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramına uyğun olaraq son illər Azərbaycanda inşa olunan və təmir edilən ümumtəhsil məktəblərin sayı artmışdır. Bu layihə Azərbaycanın elə bir məkanı yoxdur ki, orada reallaşmasın. Ümumtəhsil məktəbləri üçün yeni binaların inşası və əsaslı təmiri, onların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsi davam etməkdədir.

Reallaşan layihələrin davamı olaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki tədris müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar insanların ümid və pənah yeri olan Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb və 2020-2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub. Artıq belə müasir bir müəssisənin açılışı çətinlikləri arxada qoymuş oldu. Burada kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Kompleksin ərazisində 292 saylı tam orta məktəb tikilmişdir.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib. Burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə istifadəyə verilən bu məktəb gənc nəslin təlim-tərbiyəsində, yüksək elmi biliklər əldə etməsinə öz təsirin göstərəcəkdir.

Heydər Əliyev Fond tərəfindən reallaşan proqram və layihələrin nəticəsində Azərbaycanın təhsilinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlərin davam etdirilir. Bu yeniləşmə və nailiyyətlər Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın böyük xidmətlərinin təcəssümüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafına qadın sahibkarların dəstəyi günümüzün çağırışlarındandır

***Artıq tarixi Zəfərimizdən bizi bir ildən çox vaxt ayırır. Dövlət başçısı İlham Əliyevin nəinki postmünaqişə dövründə, eləcə də Vətən müharibəsinin gedişində müsahibələrinin əsasında Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın gələcək inkişafı məsələsi dayanırdı. Ölkə Prezidenti hələ 44 günlük İkinci Qarabağ müharibəsinin getdiyi vaxtlarda bu torpaqlarımızın azad ediləcəyinə inamı ifadə etməklə yanaşı, onların dirçəldilməsi üçün atılacaq addımlara, həmçinin Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsində bu ərazilərin malik olduqları potensialdan səmərəli istifadəyə xüsusi diqqət yönəldirdi. Bildirildi ki, əsas hədəf bu torpaqların cənnətməkana çevrilməsi, əvvəlki simalarına qayıtmasıdır.***



Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri geniş miqyası ilə diqqətdədir. Böyük Qayıdışın astanasında olduğumuz göz önündədir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, ötən dövr ərzində bu istiqamətdə görülən işlərin miqyası o qədər genişdir ki, onları sadalamaq üçün xeyli vaxt lazımdır. Reallıq budur ki, qarşıya qoyulan hədəflər uğurla icra edilir. Öncə yol infrastrukturu yeniləndi və bu istiqamətdə işlər davam edir. 2021-ci ilin oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi. Zəngilan Beynəlxalq Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır. 2020-ci il noyabrın 16-da təməli qoyulan Zəfər yolunun ötən il noyabrın 7-də açılışı oldu. İşğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər də sürətlə davam edir. Bu ərazilərdə elektrik enerjisinin təminatı ilə bağlı ötən il ərzində lazımi avadanlıqların quraşdırılması, yarımstansiyaların yenidən qurulması və bərpası, elektrik xətlərinin çəkilişi istiqamətində xeyli işlər görülüb. Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda yarımstansiyaların tikintisi qısa müddətdə başa çatdırılaraq istifadəyə verilib, digər enerji infrastrukturu obyektlərində bərpa və gücləndirmə işləri davam etdirilir. Kompleks tədbirlər işğaldan azad edilmiş ərazilərimizin qısa zamanda dirçələcəyinə, sakinlərini xoş ovqatla qarşılayacağına əminlik yaradır.

Dövlət başçısı İlham Əliyevin imzaladığı Fərman və sərəncamlar da bərpa prosesinin qısa zamanda başa çatacağına əminlik yaradır. Hər bir sənədə özündə müəyyən məqsəd və məramı, eyni zamanda, ona nail olmağın icra mexanizmini əks etdirir. İqtisadi rayonların yeni bölgüsü, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması özündə əsas məqamları ehtiva edir. Hazırda bərpa və quruculuq işləri ilə yanaşı, bu rayonların malik olduğu iqtisadi imkanlardan gələcəkdə səmərəli istifadə edərək dayanıqlı inkişafın təmin edilməsi əsas müzakirə olunan məsələlər sırasındadır.

Cənab İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqlənib. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır: dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Hər bir prioritet gələcəyə, Azərbaycanın daha qüdrətli və zəngin dövlətə çevrilməsini təmin etməyə hədəflənib.

Ölkə Prezidenti İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsi zamanı işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə diqqət yönəldərək bildirmişdir ki, keçən il çox böyük proqram icra edilməyə başlanmışdır. Müharibədən çıxmış ölkələrin təcrübəsinə nəzər saldıqda bu, doğrudan da miqyas baxımından tarix boyu ən genişmiqyaslı proqramdır. Bu proqramın özəlliyi ondadır ki, heç kimdən yardım istəmədən və almadan öz vəsaitimiz hesabına həyata keçiririk. Əlbəttə, burada da ardıcıllıq olmalı idi. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi ki, bu sahədə həm ANAMA, həm Müdafiə Nazirliyi, eyni zamanda, Fövqəladə Hallar Nazirliyi fəal işləyirlər.

Son bir ildə bərpa və quruculuq işlərinin miqyasının genişliyi minalardan təmizləmə işlərinin sürəti barədə də aydın təsəvvür yaradır. Amma bütün hallarda bu proses həm xeyli vaxt itkisidir, həmçinin maliyyə vəsaiti tələb edir. Nəzərə alaq ki, bütün bu işləri Azərbaycan dövləti öz daxili imkanlarımız hesabına həyata keçirir. Hər zaman bir-birinə dəstək olan Azərbaycan və Türkiyənin Zəngilanda birgə investisiya layihəsinə start vermələri də təqdirəlayiqdir. Məlum olduğu kimi, ötən il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışında birgə iştirakdan sonra Azərbaycan və Türkiyə Prezidentləri Zəngilanda "ağıllı kənd" layihəsi çərçivəsində Ağalı kəndində görülən işlərlə tanışlıqdan sonra "Dost Aqropark"ın təməlini qoymuşdular. Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Təbii ki, bir yazıda görülən işlərin, həyata keçirilən infrastruktur layihələrinin hamısını sadalamaq mümkün deyil. Əsas olan budur ki, soydaşlarımızın Böyük Qayıdışı təmin edilsin və tezliklə o sevinci yaşasınlar. "Bu il artıq bu infrastruktur layihələri ilə yanaşı, şəhərsalma layihələri də icra ediləcək" söyləyən ölkə Prezidenti bildirir ki, məktəblərin, xəstəxanaların təməli qoyulur. Şəhərlərin Baş planında bütün bu işlər öz əksini tapıb.

Sadaladıqlarımız Böyük Qayıdışa qədərki dövrü əhatə edir. Artıq soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdışlarından sonra yeni prioritetlər müəyyənləşdiriləcək. Belə ki, həmin ərazilərdə iqtisadi inkişafın təmin edilməsi üçün birgə addımların atılması yenə də əsas tələb kimi qarşıya qoyulur. Bu günlərdə Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında keçirilən "Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu" mövzusunda konfransda da bu kimi məsələlərə diqqət yönəldilmişdir. Hədəflərin gerçəkləşməsinə qadın sahibkarlarımızın öz töhfələrini verəcəklərinə əminlik ifadə olunaraq hazırda ölkə həyatının bütün sahələrində qadınların xüsusi fəallıq nümayiş etdirdikləri diqqətə çatdırılmışdır. O da qeyd olunmuşdur ki, işğaldan azad edilmiş ərazilərimizdə biznesin qurulmasına maraq göstərənlər arasında qadın sahibkarlar da az deyil.

Konfransda səsləndirilən statistik rəqəmlərə diqqət yetirək. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə işğaldan azad edilmiş ərazilərdə biznesin qurulması ilə bağlı daxil olan 980 müraciətdən 42-si qadın sahibkarlara aiddir ki, onların da 24-ü investisiya layihələri, 18-i isə digər iş və xidmətlərin həyata keçirilməsinə aiddir. Biznes qurmaq istəyən qadın sahibkarların təqdim etdikləri layihələrin 13-ü ticarət və xidmət, 10-u sənaye, 6-sı kənd təsərrüfatı, 6-sı turizm, 4-ü tikinti işləri, 2-si təhsil, 1-i isə səhiyyə sahələri üzrə olub. Bu fikir də xüsusi qeyd edilmişdir ki, regionlarda, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi ray onlarında qadınların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, onların bilik və bacarıqlarının artırılması, biznes planlarının hazırlanması, maliyyə resurslarına çıxışlarında dəstək göstərilməsi və bu kimi istiqamətlərdə zəruri tədbirlərin həyata keçirilməsinə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən müvafiq dəstək göstəriləcək.

Bu kimi addımlar qadınların ictimai-siyasi fəallıqlarının artırılmasına, idarəçiliklərinin təkmilləşdirilməsinə böyük töhfələr verəcək. Yalnız səylərimizi birləşdirməklə hədəflərə yüksək səviyyədə nail ola bilərik. Buna 44 günlük İkinci Qarabağ müharibəsində bir daha şahid olduq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, birliyimiz, həmrəyliyimiz sayəsində 44 gündə tarixi Zəfərə imza atdığımız kimi, işğaldan azad edilmiş ərazilərimizi də qısa zamanda bərpa edəcəyik. Bu prosesdə, eyni zamanda, həmin ərazilərin iqtisadi inkişafının təmin edilməsində hər bir Azərbaycan vətəndaşı öz səyini əsirgəməməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, işğaldan azad edilmiş şəhərlərimizin Baş palanında soydaşlarımızın gələcək fəaliyyətləri üçün də bütün imkanların yaradıldığı özünü qabarıq şəkildə büruzə verir. Hazırkı dövrdə əsas hədəflərdən biri ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Demoqrafik vəziyyətlə əlaqədar olaraq yeni texnologiyaların tətbiqi şəraitində iri fermer təsərrüfatlarının yaradılması ilə hədəflərə lazımi səviyyədə nail olmaq mümkündür. Həmin ərazilərdə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına xüsusi diqqət yetiriləcək. Bu ərazilərdə bitkiçiliyin və heyvandarlığın inkişafı prioritetdir. Doğma yurd-yuvalarına qayıdacaq soydaşlarımızın kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğulluq imkanları "ağıllı kənd" layihəsində nəzərdə tutulub. Ümumilikdə bu ərazilərimiz dövlət başçısı İlham Əliyevin "ağıllı şəhər" və "ağıllı kənd" strategiyası əsasında yenidən müasir tələblər səviyyəsində qurulacaq. Haqqında bəhs etdiyimiz konfransda bu inam da böyük qürur və fəxr hissi ilə ifadə edilmişdir ki, Böyük Qayıdışın reallığa çevrilməsi ilə kəndə qayıdıb Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsinin aqrar sektorunda fəaliyyət göstərəcək qadınlar ilk qadın fermerləri kimi tarixə düşəcəklər.

Ümumilikdə ölkəmizdə qadınların idarəçilik sistemində irəli çəkilməsinə hədəflənən addımlar onların bugünkü fəallıqlarında özünü qabarıq şəkildə büruzə verir. Dövlətin bazar iqtisadiyyatının aparıcı qüvvəsi kimi sahibkarlara diqqət və qayğısı göz önündədir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında ölkəmizdə Sahibkar Gününün təsis edilməsi də bunun təsdiqidir. Dövlətimiz daim iş adamlarının yanında olduğunu əhəmiyyətli addımları ilə nümayiş etdirir. Ən çətin anlarda belə sahibkarlar diqqətdən kənarda qalmır. Bu diqqət və qayğının qarşılığında sözsüz ki, iş adamları da ölkəmizin daha da qüdrətlənməsinə öz töhfələrini verməlidirlər. Hazırkı dövrün əsas çağırışı bərpa və quruculuq işlərinə dəstəkdir. Cənab İlham Əliyevin çağırışına uyğun olaraq dost ölkələrin şirkətləri də bu prosesdə fəal iştirak edirlər.

"Şuşa İli" əbəs yerə Böyük Qayıdışın başlanğıcı kimi dəyərləndirilmir. Bu il bərpa və quruculuq işlərinin geniş vüsət aldığı il olacaq. Artıq Qarabağın tacı Şuşamıza avtobusların hərəkəti də bu qayıdışın tərkib hissəsidir. Mədəniyyət paytaxtımız hər gün qonaqlarını qarşılamağa hazırdır.

***Yeganə Əliyeva***

# Erməni vəhşiləri qədim monastrları təhqir ediblər!

## Xocavənd rayonundakı alban-udin kilsəsi dil açıb-ağlayır



***Azərbaycan torpaqlarını 30 il boyunca işğala məruz qoymaqla yanaşı, dini, mədəni irsinə də köklü zərbələr vuran ermənilər indi hay-haray qaldırırlar ki, guya Azərbaycan "erməni monastrlarını və kilsələrini dağıdır" və s. Əslində, aşkar erməni həyasızlığının ən bariz nümunələrinə Şuşada yerləşən və rus pravoslav kilsəninin erməniləşdirilməsini sübut edən Qazançı kilsəsini əlavə etmək olar. 1992-ci ildə Şuşa şəhəri işğala məruz qalarkən kilsənin pravoslav xristianlığına malik olan günbəzini sökərək onun yerinə saxta erməni günbəzinin quraşdırılması, bütövlükdə isə həmin kilsənin erməniləşdirilməsini təsdiq edən çoxsaylı faktlar mövcuddur.***



**Foto 1: Şuşadakı Qazançı kilsəninin rus pravoslav kilsəsinə aid günbəzi üzərində saxta qriqorian kilsəsinin günbəzi əlavə edilib**

Məhz 1992-ci ilin videokadrlarından da bəlli olur ki, kilsənin üzərinə qaldırılan "xaç" qriqorian monofizitlərinə məxsus bütdən başqa heç nə deyil, üstəlik, həmin vaxt məbədin günbəzi də rus pravoslav kilsəninə məxsusluğu ilə qalırdı və sonradan o da saxtalaşdırıldı. Artıq bu gün Qazançı kilsəsi köklü şəkildə təmir edilir və yaxınlarda rus pravoslav kilsənin Azərbaycan yeparxiyasına təqdim olunacaq, təhvil veriləcək.

Eləcə də Xocavənddə dağıdılmış, viran qalmış rus pravoslav kilsəsinin mövcud vəziyyətini əks etdirən çoxsaylı fotolar və videolar mövcuddur.

**ANALİTİK+FOTOLAR**



**Foto 2: Xovacəndin işğala məruz qaldığı dövrlərdə ermənilərin dağıdaraq viran qoyduqları rus pravoslav kilsəsinin vəziyyəti**

Bütün bunlar isə bir reallığı sübut edir - vəhşilik, talançılıq xislətinə malik olan ermənilər öz barbarlıqlarını bənzər sərsəm iddiaları ilə ört-basdır etməyə cəhdlər göstərirlər.

Qədim rus kilsəsinin isə yalnız xarabalığa çevrilmiş divarları qalıb, eləcə də mehrabı tamamilə dağıdılıb. Vaxtilə kilsənin daxili olan ərazisini isə ot-alaq basıb, dini abidə demək olar ki, yer üzündən silinmək üzrədir.

Bu arada, erməni KİV-lərində Xocavənd rayonunun uşğaldan azad edilmiş Hadrut qəsəbəsində guya "qədim erməni kilsəsinin" üzərindəki xaçın götürüldüyü, dam örtüyünün isə dağıdıldığı iddia edilir. Erməni mətbuatı özünün şərböhtançı xarakteri ənənəsinə söykənərək qeyd edir ki, Vəng kəndindəki erməniləşdirilmiş "spitak xaç" kilsəsi guya qəsdən belə vəziyyətə salınır və s. Halbuki, Azərbaycan dövləti qədim alban-udin dini-mədəni irsini bərpa edir və 2021-ci il noyabrın əvvəlində Azərbaycanın udin icmasının nümayəndələri kilsəyə səfər edərkən onun təmir olunması vacibliyi barədə fikirlərini çatdırıblar. Beləliklə, alban-udin mədəniyyəti abidəsi kimi tarixin müxtəlif dövrlərini özündə cəmləşdirən bu məbəd bərpa olunmaq üzrədir.



**Foto 3: Ermənilərin saxta iddiaları**

Yeri gəlmişkən, şər-böhtançılıqla boğazlarını yırtan erməni vandalları məhz Hadrutda mövcud olan qədim alban-udin məbədini hansı vəziyyətə saldıqlarını unudurlar. Təqdim edilən fotolardan da görünür ki, XIII əsrə məxsus Qtcavəng monastrının günbəzi, mehrabı, divarları tamamilə erməni adları ilə yazılıb, cızılıb, hətta xaç abidəsinin üzəri belə təhqirlərə məruz qalıb. Bu gün özlərini az qala "bütün xristianların ən qədimi və himayədarları" kimi zorla dünya ictimaiyyətinə sırıyan bu vəhşi məxluqlar hətta qarşılarına danılmaz faktlar qoyularkən belə yaxalarını həyasızlıqla kənara çəkir, öz murdar əməllərini inkar edir, üstəlik Azərbaycanı günahkar çıxarmağa cəhdlər göstərirlər.

**Foto 4: Ermənilər alban-udin dini irsini belə təhqirə məruz qoyublar**





**Foto 5: Dünya xrsitinalığının saxtakar iddiaçılarının xaça olan münasibətləri**



**Foto 6: Hadrutdakı monastrın divarları erməni adları ilə murdarlanıb**

Bütövlükdə isə heç bir dini, mədəni irslərə hörmət bəsləməyən, yalnız saxtakar qriqoriançılıq və monofisitlik sektasını təbliğ edən ermənilər unudurlar ki, Azərbaycan torpaqlarını işğala məruz qoyduqları zaman yalnız kilsə və monastırları deyil, həmçinin müsəlmanlar məxsus olan məscid və pirləri, ocaqları, qəbiristanlıqları dağıdaraq onları vəhşicəsinə məhvə məruz qoyublar, tarixi silərək öz saxta tarixlərini bəşəriyyətə sırımağa çalışıblar.



**Foto 7: Erməni vəhşiliyinin danılmaz sübutları seriyasından...**

Lakin tarix buna imkan vermir və ortaya çıxan dəlillər bir daha sübut edir ki, onlar, sadəcə, insan cildində olan şarlatanlar və şəyatinlərdirlər. Onlar üçün müqəddəs heç nə yoxdur və zaman-zaman da dərslərini vermək, onları yerlərinə otuzdurmaq artıq yazılmamış qanuna çevrilib!

***Rövşən RƏSULOV***

# Fərariliyə don geyindirməyin sadə yolu



**"...44 günlük müharibədə Ermənistan ordusu məğlub olmadı,.. məğlub olmağa məcbur oldu".**

Deyim ki, ermənilər əvvəllər Ermənistan müdafiə nazirinin müavini olmuş Artak Zakaryanın bununla nə demək istədiyini hələ də anlaya bilmirlər. Yaxşı, gəlin Sarkis Saturyan adlı erməninin "döyüşkən erməni ordusu" barədə dediklərini yada salaq. Doğrudur, sonradan həmən o "döyüşkən erməni ordusu"nun zəlil günə düşüb bizim "Cücələrim" mahnısının nəqarətini xorla oxuduqlarını çəkib onun "gözünə soxanda" da o xislətini gizlətməyib dediklərində israr edirdi.





İndi isə, hərb sənəti ilə heç bir əlaqəsi olmayan birinin, yəni Artak Zakaryanın Ermənistan ordusu barədə təriflər deyib, onu yenidən "təxtə mindirmək" cəhdi çox gülünc görünür.

Gərək ki, yadınızda olar, bir müddət bundan əvvəl ermənilər KTMT tərkibində Qazaxıstana göndərməyə əsgər tapa bilmirdilər. Deyim ki, bunu mən demirəm. Belə ki, həmin ərəfədə İrəvan küçələrində keçirilən sorğu zamanı əksər "sadə ermənilər" belə, elə inandırıcı olmasa da, Ermənistan Müdafiə nazirliyinin 70 erməni əsgərini tapıb Qazaxıstana göndərmələrinə təəccüb nümayiş etdirirdilər.

Qeyd edək ki, yanvarın 28-i Ermənistan Silahlı Qüvvələrinin yaradılmasının ildönümü kimi qeyd edilməlidir. Amma, demək lazımdır ki, bu münasibətlə təşkil olunacaq tədbirin baş nazir Nikol Paşinyanın koronavirusa yoluxması səbəbindən təxirə salındığı bildirilir(?). Bu arada, sən demə, yanvarın 22-də özünə toy edib, gəlin gətirən erməni müdafiə naziri Suren Papikyanın da koronavirusa yoluxduğu "məlum olub".



Maraqlıdır ki, bəzi ermənilər bütün bunları Papikyanın gətirdiyi gəlinin "ayaqdüşməzliyi" ilə yox, yenə də inandırıcı olmasa belə, Ermənistan Müdafiə nazirliyinin İrəvan küçələrində parada çıxaracaq nizami ordusunun olmaması ilə əlaqələndirirlər. Nə bilmək olar...

...Artak Zakaryan isə hələ ki, öz ampulasındadır. Yəni gələcəkdə hələ ki, Ermənistandan qaçıb qurtula bilməyən erməni əhlindən, bu dəfə əvvəlkindən də güclü bir erməni ordusu yaradacaqlarına ümid edir.

...Qaçmaq demişkən, burada erməni milli assambleyanın "Mənim şərəfim var" blokundan olan deputatı Tiqran Abramyanın erməni əsgərlərinin hələ də postu qoyub qaçmaları ilə bağlı elədiyi xəbərdarlıq yadıma düşdü.

Amma qeyd edim ki, Tiqran Abramyan da əksər həmkarları kimi, erməni əsgərinin öz postunu qoyub qaçmasını onun fərariliyi və ya qorxaqlığı ilə yox, qarşı tərəf, yəni Azərbaycan Ordusunun erməni əskərlərini "oğurlamaları" ilə əlaqələndirməyə çalışır.

Beləliklə, erməni deputatın dediklərindən belə məlum olur ki, Naxçıvanla sərhəddə yerləşən hərbi hissələrdən birində xidmət edən Vaqe Manukyan adlı erməni əsgər postda olarkən "qeybə çəkilib" . Erməni deputatın sözlərinə görə, itkin düşən Vaqe Manukyan üç uşaq atasıdır deyə, onun fərarilik üçün heç bir motivi ola bilməz(?). Amma, buna baxmayaraq, Azərbaycan hərbçilərinin Manukyanı, sadəcə olaraq, bu ərazidə "oğurlaya bilməsi versiyası" guya nə Ermənistan Müdafiə Nazirliyi , nə də İstintaq Komitəsi tərəfindən nəzərdən keçirilmir.

Əslində, düz də edirlər. Çünki Tiqran Abramyandan fərqli olaraq, həmin instansiyalar Vaqe Manukyan da daxil olmaqla əksər erməni əsgərlərinin fərariliyi erməni ordusunda xidmət etməkdən daha üstün tutduqlarını yaxşı anlayırlar.

Yeri gəlmişkən, başqa erməni səlahiyyətli ermənilər kimi, gərək ki, elə Tiqran Abramyan da 44 günlük müharibə zamanı idarə etdikləri avtomobilləri qoyub qaçmamaları üçün əksər erməni sürücü əsgərlərin avtomobilin sükanına zəncirlənmələri barədə məlumatsız olmamalıdır.

***Ağasəf Babayev***



**İLHAM**

# Mənə vertolyot verin

***Bir neçə il əvvəl kasıb, imkansız insanlar varlı təbəqənin malını-mülkini nəzərdən keçirib "bunun hər şeyi var, yalnız vertolyotu və yaxtası çatışmır" deyə öz-özünə söylənirdi. Elə hallar da olurdu ki, başqasının pulunu, varını hesablamağa adət edən kasıb varlıların vertolyot və yaxta almaq üçün məqam gözlədikləri barədə özü kimi insanlarla geniş müzakirələr aparırdı. Zaman yetişdi, kasıbın varlı ilə bağlı uzaqlara hesablanan arzularını Əmlak Məsələləri üzrə Dövlət Komitəsi rellaşdırdı. Artıq Azərbaycanda elə şəxslər var ki, həm vertolyotu, həm də yaxtası var. Daha doğrusu, Azərbaycanda 12 nəfərin şəxsi vertolyotu var. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin bu günlər yaydığı məlumata görə, fevralın 1-dən daha 4 vertolyot hərraca çıxarılacaq və satışı təşkil olunacaq. Söz yox ki, həmin vertolyotu mənim kimi imkansız jurnalist və ya kasıb insan ala bilməyəcək. Yenə də uçan aparata varlı şəxslər sahib olacaqlar. Başqa cür də ola bilməz. Çünki çox zaman fani hesab olunan dünyanın gözəl həyatını daha çox varlılar yaşayırlar.***

Yay ayında təsadüfən Dənizkənarı Milli Parkda gəzən zaman dənizdə bir neçə lövbər salan yaxta və katerlər gördüm. Gördüklərim məni çox təəccübləndirdiyindən, nəzarətçi gəncə yaxınlaşıb şirin söhbətlərlə dənizdə lövbər salan yaxtaların kimlərə məxsus olması ilə maraqlandım. Gənc nəzarətçi öncə suallara cavab verməsə də, sonradan daşı ətəyindən tökük əsəbi şəkildə "kimin olacaq varlıların, vəzifə sahiblərinin" deyə bildirdi. Sonra da əlavə etdi ki, yaxta sahibləri bir neçə günlüyə özlərinə azuqə və geyim dəsti götürüb çəkilirlər dənizin ortasına. Yeyib-içib, musiqi sədaları altında rəqs edir, bir sözlə, həyatlarının dadını çıxarırlar. Açığı gənc nəzarətçi o dərəcədə bəh-bəhlə, həm də şirin danışdı ki, həsədlə dənizin ortasına baxdım. Öz-özümə düşündüm ki, heç olmasa o yaxtaların içinin necə olduğunu görmək mənə nəsib olaydı. Təbii ki, kimdi məni yaxtaların içinə buraxan. Yəqin ki, bu yaxtaların qapısı önündə keçəl, bığsız idmançılar dayanırlar. Quş quşluğu ilə həmin qapıdan keçib içəridə baş verənləri izləyə bilməz, o ki ola mənim kimi sadə və imkansız jurnalist. Hər şey varlılar üçündür, Azərbaycanda gəzir, vertolyota, yaxtaya sahib olurlar, bununla kifayətlənməyib, xarici ölkələrdəki, bahalı istirahət mərkəzlərinə də baş vururlar. Deyilənə görə, elə varlı məxluqlar var ki, xarici ölkələrə səfərlərini öz şəxsi vertolyotları ilə həyata keçirirlər. Məsələn, belələri sırasında Hacı İbrahim Nehrəmlinin, Nəriman Əliyevin, Kəbirənin, Hafizin, Dövlət Neft Şirkətinin bir neçə şöbə müdirinin və vitse-prezidentinin və digərlərinin adını çəkmək olar. Hətta deyilənə görə, şou əhlinin bəzi tanınmış mütrüblərinin də Azərbaycanda və Türkiyədə yaxtaları var.

Yaxın vaxtlarda Əmlak Məsələləri üzrə Dövlət Komitəsi daha 4 vertolyotun hərracını keçirən zaman qırhaqır düşəcək. O varlı məxluq deyəcək ki, vertolyotu mən alıram, vəzifəli şəxs isə onun üstünə yeriyib iddia edəcək ki, bu vertolyotları almağa daha çox onun haqqı var. Beləcə, çəkişmə başlayacaq. Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin reytinqli vəzifəli şəxsi dəstəyini kimə göstərsə, o da vertolyota sahib olacaq. Yəni, məsələnin həlli hansı tərəfin Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin vəzifəli şəxsinə daha yaxın olması ilə bağlı olacaq. Maraqların təmin olunmasında görüm-baxım da xüsusi rol oynaya bilər. Vertolyota 200 min manat ödəməyə hazır olan şəxs təbii ki, 20-30 min "hörmət" etməyə də xəsislik etməz. Bizə isə ancaq o qalır ki, vertolyotdan yazaq, yaxtadan söhbət açaq və varlı təbəqənin bu vasitələrdən necə və hansı formada istifadə etmələrini müzakirəyə çıxaraq. Nə alırsa-alsınlar, təki tank, qırıcı - bombardmançı təyyarə almasınlar. Fəlakət varlı insanların hərbi təyinatlı tank və ya "F-16" təyyarələri aldıqları zaman yarana bilər.

# Qərb və Rusiya: təhlükəsizlik zəmanəti, yoxsa müharibəyə zəmanət?



*Mövcud situasiya bütövlükdə geosiyasi reallıqları çox böyük coğrafi məkanda dəyişdirə biləcək dərəcədə təhlükə mənbəyi hesab olunur*

ABŞ Rusiyanın Ukraynaya hərbi müdaxiləsi halında 18 ssenari hazırlayıb. Lakin o da maraqlıdır ki, ABŞ prezidenti Bayden Ukrayna prezidenti Zelenski ilə apardığı telefon görüşməsi zamanı həmkarına fevral ayında ehtiyatlı olmağı tövsiyə edib. Yəni Rusiyanın hücumunun məhz fevralda başlayacağı ilə bağlı məlumatlı olduğunu bildirib. Halbuki, Rusiyanın xarici işlər naziri bildirib ki, onun ölkəsi, ümumiyyətlə, hücum etmək fikrində deyil və hücum baş verərsə, onu məhz Ukrayna və Qərb dəstəkçiləri reallaşdıra bilərlər. Ancaq bu kimi bəyanatlara, xəbərdarlıqlara rəğmən, həm Rusiya Ukrayna sərhədlərinə canlı qüvvə və çoxsaylı hərbi texnikalarını toplayır, həm də Qərb NATO çərçivəsində öz hərbçilərini "hərbi təlimçilər" adı altında Ukraynanın Rusiya ilə sərhədlərinə, separatçıların yaxın olduqları ərazilərə göndərir. O cümlədən, hərbi sursat və texnikaların da göndərilməsi prosesi davam edir. Üstəlik, ABŞ İsveç və Finlandiyanı NATO-nun tərkibinə qatmağa çalışır.

Proseslər onu da göstərir ki, Qərb Rusiyanın Mərkəzi Asiyada tətbiq etdiyi taktikasını eynilikl ə təkrarlayır. Misal üçün, Moskva Mərkəzi Asiyada "taliban" təlaşını yaymaqla Özbəkistanı və Türkmənistanı KTMT-yə daxil etdirməyə çalışır.





## Müharibə baş verərsə...

Beləliklə, sual yaranır ki, əgər müharibə baş verərsə, o, necə davam edəcək? Və ya müddəti nə qədər davam edəcək? Müharibə yalnız Donbasdamı baş verəcək, yoxsa bütün sərhəd boyu uzanan perimetr boyunca? Həmçinin, Qərb-Rusiya qarşıdurması reallaşarsa orada hansı silahlardan istifadə ediləcək? Ümumiyyətlə, müharibə olacaq yoxsa qaranlığın sonunda işıq kimi görünən sülh? Bəlkə akopalipsisis?

Yəqin ki, bütün bunlar ABŞ-ın hazırladığı və məxfi sadladığı 18 ssenaridə mövcuddur. Hətta belə demək mümkündür ki, əgər Qərb Rusiyanın təkliflərini rədd edərsə Rusiyanın özü-öz təhlükəsizliyini təmin etmək üçün yaranmış şəraitdə müharibənin qaçılmaz olduğunu bəyan edəcək və...

**Qərb bu zəmanəti alsa belə, Moskvaya bel bağlamayacaq, çünki müasir siyasətdə inam və etibarlıq prinsipi ikinci, hətta üçüncü plana keçib**

Və əlbəttə ki, bu da Ukraynaya hərbi müdaxilə üçün açar vəzifəsini oynayacaq. Mümkündür ki, 18 ssenaridə belə bir plan da mövcuddur: Rusiya Xarkov və Odessanı tutacaq, bununla da Ukraynanın Qara dənizə olan çıxışını bağlayacaq. Amma yenə də belə bir sual yaranır: Rusiya bu addımı ilə Ukraynanın bu hissəsində öz ballistik raketlərini yerləşdirəcəkmi? Yoxsa məqsəd on milyonlarla insanı olan Ukraynanı bütövlükdə əldə etməyə çalışır?

Lakin unutmaq olmaz ki, Ukrayna da 2014-cü ilin Ukraynası deyil. Ötən illər ərzində bu ölkədə hərbi peşəkarlığı yüksək səviyyəyə qədər yetişdirilən silahlı qüvvələr formalaşdırılıb. Hesab edək ki, müharibə başlayıb və ruslar az-çox irəliləyiblər. Onda Qərblə yeni şərtlərlə danışıqlara başlanılacaq. Ancaq Qərb belə bir şəraitdə, yəni müharibə başladıqdan sonra siyasi ticarətə gedəcəkmi? Bu da mümkün görünmür. Belə ehtimalı da irəli sürmək mümkündür ki, Qərb geriyə addım atacaq və nəticədə təhlükəsizlik zəmanətini imzalayacaq, təbii ki, Rusiya da Şərqi Avropada eyni zəmanəti verməlidir. Qərb bu zəmanəti alsa belə, Moskvaya bel bağlamayacaq, çünki müasir siyasətdə inam və etibarlıq prisnipi ikinci, hətta üçüncü plana keçib. Əsas öndə olan isə bilavasitə güc amilidir.

Ukraynası sabah da, biri gün də Krımdan, Donetskdən, Luqanskdan, Xarkovdan, Odessadan imtina etməyəcək, necə ki, Gürcüstan Abxaziyadan və Cənubi Osetiyadan imtina etmir

Bütün bunlardan nəticə hasil etmək olar ki, bu günün Ukraynası sabah da, biri gün də Krımdan, Donetskdən, Luqanskdan, Xarkovdan, Odessadan imtina etməyəcək, necə ki, Gürcüstan Abxaziyadan və Cənubi Osetiyadan imtina etmir.

Bütün bunlar isə açıq şəkildə göstərir ki, qarşı dayanan tərəflər bir-birlərinə qarşı mümkün olmayan şərtlər irəli sürürlər və müharibə qaçılmazlığa çevrilir.

Rusiya silahlı qarşıdurmada qalib olarsa, bu, o demək deyil ki, onun bütün siyasi üstünlükləri Qərb üzərində diktəyə çevriləcək. Belə ki, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sərt sanksiyaları Rusiyanın dsaxilində kəskin narazılıq kollapsına səbəb ola bilər, bu narazılıqlar artar, üstəlik dövlət çevrilişinə qədər inkişaf edə bilər. Məsələ həm də ondadır ki, Ukrayna ilə müharibədə, yaxud Qərblə qarşıdurmada rusların da xeyli canlı itkiləri olacaq bu isə ölkədəki hiddət və qəzəblərin daha da artmasına səbəb ola biləcək arqumentlərdir.

Söz yox ki, bu məsələdəki situasiyanın proqnozları çox çətindir və nəticələr hasil etmək heç də asan deyil. Çünki mövcud situasiya bütövlükdə geosiyasi reallıqları çox böyük coğrafi məkanda dəyişdirə biləcək dərəcədə təhlükə mənbəyi hesab olunur. Necə deyərlər, yaşayarıq, görərik...

***Rövşən RƏSULOV***

# "Paşinyan Sarkisyanı müəyyən vasitələrlə istefaya məcbur edib"

"Ermənistanda son dövrlərdə xüsusən də 2-ci Qarabağ müharibəsindən sonra baş verənlər gözlənilən idi. Bu məğlubiyyətlə əlaqələndirilsə də Ermənistanın siyasətinə nəzər salsaq görərik ki, elə müharibədən əvvəl də onun siyasətində Ermənistana xarakterik olan müəyyən xüsusiyyətlər var idi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva bildirib.



Onun sözlərinə görə, seçki periodlarının özündə də bu cür qarşıdurmaların, siyasi kəskin qütbləşmələrin olması, siyasi texnologiyaların və siyasi institutların oturuşmiş səviyyədə olmaması, siyasi mədəniyyətin aşağı səviyyədə olması kimi faktorlar mövcuddur: "Məğlubiyyətdən sonra da xalqla hakimiyyət arasındakı uçurum daha da dərinləşdi. Bu uçurumun mənbəyi "Qarabağ klanı"nın hakimiyyəti dövründən qoyulmuşdur. Paşinyanın da hakimiyyətə gəlməsini biz 2 masada əyləşmək siyasəti adlandırırıq. Bu siyasətin nəticələrini bu gün Ermənistan yaşayır. Hər iki tərəfin əlini sıxmaq məcburiyyəti o deməkdir ki, hakimiyyəti hər iki qütbün tələblərini yerinə yetirməyə vadar edir. Bu da Paşinyanın sözü ilə əməlinin üst-üstə düşmədiyini göstərir. Bir məsələ ilə bağlı dəfələrlə Paşinyanın fərqli yanaşmalarının şahidi olmuşuq. Bunlardan ən aktualı elə Qarabağ məsələsidir, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsidir. Armen Sarkisyanın da istefa verməsi gözlənilən bir hal idi. Amma digər tərəfdən də Sarkisyanın istefa vermə qərarını prezident səlahiyyətlərinin yetərli olmaması ilə, Ermənistandakı siyasi proseslərə təsir imkanlarının az olması ilə əlaqələndirilməsi cəmiyyətdə siyasi ekspertlər tərəfindən də müxtəlif suallar yaradır.

Sarkisyan 2018-ci ildə hakimiyyətə gəlmişdir və həmin vaxtda parlament idarəçilik üsulunun hansı prinsiplərlə icra olunduğunu çox yaxşı bilirdi. Bilirdi ki, prezident səlahiyyətləri bu sistemdə simvolik xarakter daşıyır və prezident sadəcə olaraq seçkinin təyin olunması, hökumətin qərarlarının təyin olunması, parlament tərəfindən qanun təkliflərinin təsdiq olunması kimi simvolik səlahiyyətləri daşıyır. Yeni siyasi proseslərə bundan artıq səviyyədə təsir imkanlarının mövcud olmadığını Sarkisyan yaxşı bilirdi. Yaxud da Paşinyanın Azərbaycanla bağlı, Türkiyə ilə bağlı yeni yanaşma tərzi yaranıb. Hər nə qədər hakimiyyət olaraq müəyyən qədər təkzib olunsa belə bu Ermənistan üçün labüdləşib.

Türkiyə və Azərbaycanla da inteqrasiya xəttini məcburi şəkildə tutmalıdır və kapitulyasiya aktının prinsiplərini məcburi şəkildə yerinə yetirməlidir. Bu kapitulyasiya aktı isə 2020-ci ilin noyabr ayında imzalanıb. Sarkisyan məhz indiki vaxtda belə bir istefa qərarı verməsi onu göstərir ki, onun ifadə etdiyi səbəb əslində reallığı əks etdirmir.

Düşünürəm ki, ümumiyyətlə son dövrlərdə həm Paşinyanın özü tərəfindən, həm Paşinyana loyal olan parlament təmsilçiləri tərəfindən belə fikirlər səsləndirilir ki artıq Ermənistan yeni konstitusiya dəyişikliyinə doğru gedir. Bu da parlament üsul idarəsindən ya yarı prezident idarəçilik üsuluna, ya da prezident idarəçilik üsuluna keçidlə bağlıdır. Yeni idarəçilik üsulunda da hər iki halda prezidentin səlahiyyətləri genişləndirilmiş olur. Biz də Paşinyanla Sarkisyan arasında siyasi qütbləşmənin, siyasi konfrantasiyanın olduğunu nəzərə alsaq Paşinyan Sarkisyanın hakimiyyətdə olduğu dövrdə bu səlahiyyətləri genişləndirməyi düşünməz. Bu baxımdan demək olar ki, Paşinyan Sarkisyanı müəyyən vasitələrlə istefaya məcbur edib".

***Abutel İlhamqızı***

SƏS
29 yanvar
2022-ci il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Qısqanclıq nədir, - SEVGİ, YOXSA GÜVƏNSİZLİK?



***“Ümumiyyətlə, insan elə uşaq ikən qısqanclığın nə hiss olduğunu öz böyüdüyü, boya-başa çatdığı ailəsində görür. Ailəsinin övladlar arasında olan münasibəti, valideynlərin bir-birinə və övlada olan münasibətində müəyyən inciklik hiss edir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında psixoloq Gülər Məmmədova deyib.***

Gülər Məmmədova qeyd edib ki, özünə diqqətin azalmasını, yəni, ”atam anamı çox istəyir, amma məni az istəyir” və s. bu kimi qısqanclıqlar artıq uşaq ikən yaranır: ”Bu hiss sonra bağça yaşlarında da dostlar arasında ”mənlə oyna, onunla oynama, gəl mənim oyuncağımla birlikdə oynayaq” kimi hisslər olur. Bu kimi hisslərlə böyüyən insan sevdiyi insanı sanki sahiblənmək istəyir və sahibləndiyi insanın da başqalarına baxmağına, xoş rəftar etməyinə, hətta ondan xoş söz eşitməyinə belə qısqanclıqla yanaşır. Normal həddə qısqanclıq var ki, insan öz sevdiyini bölüşmək istəmir. Elə qısqanclıq da var ki, özünə güvən əksikliyindən yaranır, qısqanclıq da var ki, bu, artıq patoloji həddə çatıb, yəni xəstəlik həddinə çatacaq bir qısqanclıqdır ki, bunun kökündə sinir sistemi problemi dayanır. İnsan əlində olan əşyasını, ümumiyyətlə, sevdiyi bir insanı heç kimlə bölüşmək istəmir, hətta onun baxışına belə qısqanır ki, ”öz doğmalarına belə baxma, yalnız mənə bax” deyir. Hətta belə insanları çərçivələyib sanki zindanda saxlayan insanlar da var ki, qadınlara mütəmadi telefonla zəng edir, ”haradasan, indi olduğun məkanı göstər” soruşurlar. Bəzən də telefona məkan təsbit edən proqram yerləşdirirlər ki, həmin insanın harada olduğu bilinsin”.

Psixoloq vurğulayıb ki, bu kimi izləmələr etibarsızlıqdan, inamsızlıqdan dolayı yaranır: ”Qısqanclıqlar cütlüklər arasında bərpa edilmədikdə ailəlik dönəmində çox ciddi problemlərə gətirib çıxara bilir. Mütəmadi söz-söhbətlər, kiçik-kiçik konfliktlər, anlaşılmazlıqlar və bunun nəticəsində hər iki tərəfin dözülməz olub bir-birinə uyğun olmamasına və yaxud boşanmalara gətirib çıxara bilir. Təəssüf ki, qısqanclığın nə olduğunu özündə fərqinə varmayan bir çox qadın və kişilər bunu araşdırmaq istəmirlər, özlərini haqlı hesab edirlər. Yalnız bu insanın daxili intizamını pozur və özünü içəridən yıxmaqdan başqa insana heç bir fayda vermir. Özünə dəyər verən, inanan, güvənən insan qarşı tərəfi sevərək dəyərləndirməli, onun istək və arzularına dəyər verməlidir, qarşılıqlı anlaşma olmalıdır. Təbii ki, qarşı tərəf həddi aşmamaq şərti ilə sevildiyi insanı lüzumsuz, əsassız bir davranışlara görə özünə qısqandırmamalıdır. Bəzi qadınlar var ki, sanki özünü qısqandırmaq istəyir. Yoldaşı ona diqqət ayırsın deyə müəyyən bir hərəkətlərə yol verir. Yalnız həddindən artıq qısqananlar da şikayət edir ki, həyat yoldaşım məni qısqanır və yaxud əksinə, kişilər şikayət edir ki, ”xanımım məni qısqanır, bu çox ifrat dərəcədədir, məni yorur, bezdirir, hətta mən belə olan halda evdən qaçıram”. Ona görə bu qırmızı xətti keçməmək şərti ilə insanlar digər insanları müəyyən qədər azad buraxmalıdırlar. Çünki insanı bu qədər idarə etmək həqiqətən də diskomfortluq verir və bu konfliktlərin sonu çox ağır bir problemlərlə nəticələnir”.

***Rüqəyya Orucova***

# Ronaldo 28 yaşını sevgilisi ilə qeyd etdi



*Məşhur futbolçu Ronaldonun həyat yoldaşı 28 yaşı münasibəti ilə "İnstaqram"da foto paylaşıb. SİA xəbər verir ki, cütlüyün səmimi görüntüləri izləyiciləri tərəfindən maraqla qarşılanıb.*

***Ayşən***

# Xarici diplomlar hansı hallarda tanınmır?

“Xarici diplomlar əsasən tələbənin təhsil aldığı dil üzrə biliklərinin olmaması, təhsil aldığı ixtisas barədə məlumatsızlığı, iddia etdiyi dövr ərzində xarici pasportunda müvafiq olaraq ölkədən çıxış və giriş tarixlərinin öz əksini tapmaması (əyani və qiyabi təhsil formalarının yoxlanışı zamanı baxılır. Distant təhsil zamanı deyil. Distant zatən tanınmır) zamanı tanınmır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, əgər bu faktlar təsdiq olunursa, diplom tanınır: ”Təhsildə Keyfiyyət və Təminat Agentliyi tərəfindən yoxlama aparılır və nəticədə diplom ya tanınır, ya da tanınmır. Belə olan halda vətəndaş müvafiq qaydada məhkəməyə müraciət edə bilər”.



Elçin Əfəndi sözlərinə belə davam edib: ”Bəzən abituriyentlər bu amilləri nəzərə almadan attestatla xarici ölkələrin universitetlərinə qəbul olurlar, amma yekunda diplomları tanınmır. Ona görə də araşdırma apararaq, hansı univeristetlərin diplomları tanınırsa, məhz həmin universitetlərə üz tutmaları məsləhət görülür”.

Hazırda ən çox təhsil üçün üz tutulan universitetlər Türkiyə, Ukrayna, Gürcüstan və Qərbi Avropa ölkələridi. Liderlik qardaş ölkədədir ki, burada 20 mindən çox vətəndaşımız təhsil alır. Təəssüf ki, onların əskəriyyəti bu amilləri nəzərə almadan təhsil ardınca gediblər, yaxşı olar ki, tanınma ilə bağlı məsələləri diqqətə alsınlar”.

***A.Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**